22 iyun 2022 №46 (1919) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Daşkənddə Heydər Əliyev meydanının açılışı keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfərinə gedib.

Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Müstəqillik abidəsini ziyarət ediblər. Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılan abidə özbək xalqının üç min illik tarixini əks etdirir. Abidə ölkənin müstəqilliyinin ildönümünə həsr olunan "Yeni Özbəkistan" kompleksinin mərkəzində yerləşir. Altmış metr hündürlüyündə abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir.

İyunun 21-də Daşkənddə Heydər Əliyev meydanının açılışı olub. Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev açılış mərasimində iştirak ediblər.

Meydan paytaxtın Mirabad rayonunda azərbaycanlıların yığcam yaşadıqları ərazidə yerləşir. Ətrafdakı binalar abadlaşdırılıb. Meydanın ərazisi tamamilə yenidən qurulub, burada yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Meydanın mərkəzi hissəsində ulu öndər Heydər Əliyevin böyük memorial kompleksi ucaldılıb. Ümummilli lider Heydər Əliyevin adını daşıyan küçədə yerləşən meydan şəhər sakinləri və qonaqların istirahət üçün ən çox üz tutduqları yerlərdən biri olacaq.

Özbəkistan və Azərbaycan prezidentləri mərasimdə çıxış ediblər.

Dövlət başçıları memorial kompleksin açılışını edib, önünə gül dəstələri qoyublar.

İyunun 21-də Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə məhdud və geniş tərkibdə görüşləri olub. Geniş tərkibdə görüş başa çatdıqdan sonra prezidentlərin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədləri imzalanıb. Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

*Prezident İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri barədə ətraflı qəzetin növbəti sayında.*

## İran Azərbaycanla mədəni əlaqələri inkişaf etdirmək istəyir

### Şuşa ilə İran şəhərlərindən birinin qardaşlaşması təklif edilib

Azərbaycanın Qarabağ bölgəsinin işğaldan azad edilməsi İranı sevindirir. Biz həmişə Azərbaycanı azad və firavan görmək istəyirik. İran hökuməti Azərbaycanla mədəniyyət sahəsində əlaqələrin inkişaf etdirilməsini də istəyir və bu istiqamətdə addımlar atmağa hazırdır.



İranın mədəniyyət və islam irşad naziri Məhəmməd Mehdi İsmaili bu sözləri iyunun 20-də Tehranda Azərbaycanın mədəniyyət naziri Anar Kərimov ilə görüşdə deyib.

Görüşdə iki ölkə arasında mədəni əlaqələrin geniş spektri müzakirə olunub.

Dəvətə görə iranlı həmkarına təşəkkür edən Anar Kərimov səfərin Azərbaycan-İran diplomatik əlaqələrinin 30 illiyinə təsadüf etdiyini deyib. Qeyd edib ki, Azərbaycan və İran xalqlarının çoxəsrlik dostluq əlaqələri var. Bu gün Azərbaycan və İranın dövlət başçıları arasında yüksək səviyyəli siyasi dialoq mövcuddur. Dövlətlərimiz arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Digər sahələrdə olduğu kimi, mədəni əlaqələri də inkişaf etdirməliyik.

"Dövlətlər arasında digər əlaqələrdən fərqli olaraq mədəni əlaqələr daimi xarakter daşıyır. Hazırda Azərbaycanda İranın Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Tehranda da Azərbaycan Mədəniyyət Mərkəzinin açılması qarşılıqlı mədəni əlaqələrimizin inkişafında çox müsbət rol oynaya bilər. Biz Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasında maraqlıyıq və ümid edirik ki, dostluq əlaqələrimizin möhkəmlənməsi istiqamətində belə bir mərkəzin açılmasını İran hökuməti dəstəkləyəcək və o, Azərbaycan-İran dostluğunun simvoluna çevriləcək", – deyə Anar Kərimov nəzərə çatdırıb.

Nazir Qarabağın işğaldan azad edilməsi barədə danışaraq bildirib ki, bu, xalqımız üçün şərəf məsələsi idi. Azərbaycan xalqı öz torpaqlarının işğal altında qalması ilə barışmadı və Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən Vətən müharibəsində Ermənistanın işğalında olan torpaqlarını azad etdi. Hazırda Azərbaycan dövləti erməni işğalçılarının törətdikləri vandalizmin nəticələrini aradan qaldıraraq bu ərazilərdə geniş quruculuq işləri həyata keçirir. Tarixi, mədəni abidələrimizlə yanaşı, məscidlər də bərpa olunur. Məqsədimiz İslam dəyərlərini bərpa etməkdən ibarətdir. Qarabağda dağıdılmış məscidlərin bərpası ilə yanaşı, Ağdam, Şuşa və Zəngilan rayonlarında yeni məscidlər də tikilib xalqın istifadəsinə veriləcək.

**davamı səh. 2-də**

## Gəncədə "Min bir gecə"

### Fikrət Əmirovun baleti doğma şəhərdə nümayiş etdirilib

Fikrət Əmirovun anadan olmasının 100 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 mart tarixli sərəncamının icrası ilə bağlı tədbirlər planı çərçivəsində bəstəkarın "Min bir gecə" baleti Gəncədə nümayiş olunub.

Bəstəkarın ən məşhur əsərinin doğulduğu şəhərdə nümayişi Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dəstəyi ilə reallaşıb.



F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında təqdim olunan səhnə əsərinə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Milli Məclisin deputatı Müşfiq Cəfərov, Mədəniyyət Nazirliyinin Musiqi sektorunun müdiri Vüqar Hümbətov, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, mədəniyyət işçiləri, şəhər ziyalıları və sakinlər tamaşa ediblər.

Fikrət Əmirov yaradıcılığında xüsusi yer tutan və ona dünya şöhrəti qazandıran, gözəl musiqiyə malik "Min bir gecə" baletini eyniadlı ərəb nağıllarının motivləri əsasında yazıb. Balet melodiya rəngarəngliyi, xoreoqrafik quruluşu və səhnə tərtibatına görə hər zaman tamaşaçılarda böyük maraq oyadıb və Gəncədə də anşlaqa səbəb olub.

**davamı səh. 2-də**

## Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsinin qalibləri bəlli olub

Görkəmli müğənni, Azərbaycan vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbülün (1897-1961) anadan olmasının 125 illiyinə həsr olunan Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsi qaliblərinin adları açıqlanıb.

Müsabiqədə Azərbaycan, Rusiya, İsrail, Türkiyə, Monqolustan, Özbəkistan, Ukrayna, Meksika, Qazaxıstan və digər ölkələrdən 100-ə yaxın ifaçı iştirak edirdi.

Müsabiqənin Qran-pri mükafatına Elmina Həsənova (Azərbaycan) layiq görülüb. Digər mükafatçılar: I yer - Ankhbayar Enkhbold (Monqolustan), II yer – Nikita Volkov (Rusiya) və Olqa Rudik (Ukrayna), III yer – Baluan Berkenov (Qazaxıstan), Aleksandra Sokolova (Rusiya), Həmid Əbdülov (Azərbaycan), IV yer – Ezgi Karakaya (Türkiyə), Nigar Cəfərova (Azərbaycan).

Müsabiqənin xüsusi mükafatçıları da müəyyən olunub. "Bülbülün repertuarından Azərbaycan bəstəkarlarının əsərlərinin ən yaxşı ifası" nominasiyasında Baterdene Dorjtseden (Monqolustan) qalib olub. "Ümid" mükafatını Medeya Çikaşvili (Gürcüstan), "Tamaşaçı rəğbəti"ni isə rusiyalı Valeriya Latışeva qazanıb.

16-22 iyun tarixində keçirilən müsabiqənin mükafatlandırma və qala-konserti mədəniyyət



paytaxtımız Şuşada keçiriləcək.

Qeyd edək ki, bu il də iştirakçıları beynəlxalq münsiflər qiymətləndiriblər. Münsiflər heyətinin sədri Rusiyanın Xalq artisti Sergey Leyferkusdur. Heyətə Xalq artistləri Fərhad Bədəlbəyli, Siyavuş Kərimi, Murad Adıgözəlzadə, Dinara Əliyeva, Rusiyanın Əməkdar incəsənət xadimi Dmitri Vdovin, Əməkdar artist Mariya Meşaryakova (Rusiya), Gürcüstanın Xalq artisti Teymuraz Ququşvili, SSRİ Xalq artisti Mariya Stefyuk (Ukrayna), Belarusun Xalq artisti Anastasiya Moskvina və Qazaxıstanın Əməkdar incəsənət xadimi Azamat Jeltırquzov daxildir.

Xatırladaq ki, Bülbül adına birinci beynəlxalq müsabiqə görkəmli müğənninin 100 illiyi ərəfəsində, 1997-ci ildə Prezident Heydər Əliyevin müvafiq sərəncamı ilə keçirilib.

## Vətən müharibəsində tarixi Zəfərə həsr olunan ədəbi müsabiqə

Mədəniyyət Nazirliyi Vətən müharibəsindəki tarixi Zəfərə həsr olunan ədəbi müsabiqə elan edib. Müsabiqənin məqsədi Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin gələcək nəsillər üçün bədii mətnlər vasitəsilə əbədiləşdirilməsi, böyük Zəfərin bədiiləşdirilməsidir.

Müsabiqə 3 ədəbi janr üzrə keçirilir: roman, dram, mənzum hekayə. Əsərlərdə 44 günlük Vətən müharibəsində hərb meydanında, arxa cəbhədə, beynəlxalq arenada yaşanan proseslər əks etdirilə bilər.

Əsərlər daha əvvəl heç yerdə çap olunmamalı və yayımlanmamalıdır. Əsərlər Azərbaycan dilində, bir şəxs tərəfindən yazılmalıdır. Müştərək iş qəbul olunmur. Tarixi faktlar təhrif olunmamalıdır. Həcm məhdudiyyəti yoxdur.

Hər ədəbi janr üzrə bir qalib elan olunacaq. Mükafat fondu: roman janrı üzrə 10 000 manat; dram janrı üzrə 5 000 manat; mənzum hekayə janrı üzrə 5 000 manat.

## "Azərbaycan aşıq sənəti" sərgisi



Tovuz rayon Aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində Xalq rəssamları Arif Hüseynovun və Sirus Mirzəzadənin "Azərbaycan aşıq sənəti" adlı tematik sərgi açılıb.

**səh. 4**

## Pənahəli xanın başdaşı bərpadan sonra ilk dəfə sərgilənir

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində Qarabağ xanlığının yaradıcısı, Şuşa şəhərinin əsasını qoyan Pənahəli xan Cavanşirin (1693-1763) başdaşının bərpadan sonra ictimaiyyətə təqdimatı olub.

İyunun 20-də keçirilən təqdimat mərasimində muzeyin baş direktoru, akademik Nailə Vəlixanlı çıxış edib. Akademik bildirib ki, ölkə başçısının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncamına uyğun olaraq muzey Şuşa şəhərinin tarix və mədəniyyətinin təqdim edilməsi ilə bağlı silsilə tədbirlər keçirir.

Qeyd olunub ki, muzeydə Qarabağ, o cümlədən Şuşa şəhərinin tarixi və mədəniyyəti ilə bağlı zəngin kolleksiya toplanılıb. Kolleksiyaya daxil olan eksponatların tarixçələrinin öyrənilməsi, onların tədqiqi, təmiri və bərpası üçün böyük səy göstərilib.



**davamı səh. 3-də**

"Mədəni yenilənmə"də köhnə-yeni teatr haqqında



**səh. 5**

Mədəniyyət Nazirliyinin "Kommunikasiya meneceri" layihəsi üzrə treninqlər keçirilir

**səh. 3**



Afaq Abbasova İtaliya səhnəsində

**səh. 8**

# Xudafərin körpüsünün UNESCO siyahısına salınması üçün İranla birgə iş aparılır

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov İrana səfəri çərçivəsində iyunun 21-də bu ölkənin milli irs, əl işləri sənayesi və turizm naziri İzətullah Zərqami ilə görüşüb.



Görüşdə Anar Kərimov mədəni əlaqələrin inkişafının əhəmiyyətini vurğulayaraq bildirib ki, İranla Azərbaycan UNESCO çərçivəsində əməkdaşlıq edərək qeyri-maddi mədəni irs nümunələrini təşkilatın siyahısına daxil edib. Bu sıraya nazik çörək – lavaşın hazırlanması və paylaşılması ənənəsi, kamança sənəti, Novruz bayramı kimi nümunələr aiddir.

Nazir vurğulayıb ki, İran və Azərbaycan qədim sivilizasiyaya malik olan ölkələrdir və bu, hər iki dövlətin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi zərurətini yaradıb. Azərbaycanın UNESCO-nun Dünya irsi siyahısında yer alan İçərişəhər, Qobustan, Şəki kimi qədim tarixi məkanları var. Bunlar beynəlxalq aləmdə maraq doğurur və turizmin inkişafı üçün də imkanlar yaradır. Turizm xalqları birləşdirən və bir-birini yaxından tanımaq üçün zəmin yaradan bir sahədir. Turizm əlaqələri həm maddi gəlir, həm də yaxınlaşmaq üçün daha münasib sahədir.

Qarabağ haqqında məlumat verən Azərbaycanın mədəniyyət naziri vurğulayıb ki, otuz ilə yaxın ermənilərin işğalı altında qalan ərazilərdə milli irsimizə qarşı vandallıq siyasəti həyata keçirilib. Ermənistan işğal etdiyi rayonlarda məscidlərlə yanaşı, qəbiristanlıqları, muzeyləri, tarixi və dini abidələri məhv ediblər. Azərbaycan Prezidentinin rəhbərliyi ilə azad olunan torpaqlarda geniş quruculuq və bərpa işləri aparılır. Milli irsimizə dəyən zərər aradan qaldırılır. Bu işdə İranın böyük təcrübəsi var və biz bu təcrübədən yararlanmaq istərdik. İşğaldan azad olunan Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtıdır. İşğal illərində burada 17 məscid dağıdılıb. Bu gün bu məscidlərin bərpası prosesi davam edir. Bərpa işlərində məqsədimiz dini və tarixi abidələri yenidən qurub insanların xidmətinə vermək və milli irsimizi qorumaqdan ibarətdir.

Qeyd olunub ki, XI əsrdə inşa olunan Xudafərin körpüsü Azərbaycanın qeyri-maddi irsinə aid olan tarixi abidədir və qədim İpək yolunun əsasını təşkil edib. Azərbaycan Prezidenti İlham Əliyev bu körpünü Azərbaycanla İran arasında dostluq və əməkdaşlıq körpüsü adlandırıb. İranla əməkdaşlıq sahəsində bu körpünün UNESCO-nun siyahısına salınması istiqamətində iş aparılır.

Nazir Anar Kərimov qonaqpərvərliyə görə təşəkkür edərək həmkarını Azərbaycana səfərə dəvət edib.

İranın milli irs, əl işləri sənayesi və turizm naziri İzətullah Zərqami 2012-ci ildə Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev ilə görüşünü xatırladıb. Rəhbərlik etdiyi qurum barəsində məlumat verən nazir ermənilər tərəfindən məscidlərin dağıdılmasını pisləndiyini və onların bərpasında Azərbaycana yaxından kömək etməyə hazır olduqlarını nəzərə çatdırıb.

Qeyd olunub ki, İran və Azərbaycan xalqları eyni tarixə, milli adət-ənənələrə və dini dəyərlərə malikdir. Bu amillər iki xalqın daha yaxın olmasını şərtləndirir. Bəzi qüvvələr bizim ortaq dəyərlərimizdən istifadə edib xalqlarımız arasında nifaq salmağa çalışırlar. Lakin bu dəyərlər bizi daha da yaxınlaşdırmalıdır.

# İran Azərbaycanla mədəni əlaqələri inkişaf etdirmək istəyir

əvvəli səh. 1-də

Mədəniyyətin müxtəlif sahələrində əməkdaşlıqdan söz açan nazir Anar Kərimov qeyd edib ki, kino sənayesi xalqları birləşdirən amildir. Bu sahədə əməkdaşlıq əlaqələrini gücləndirib birgə filmlərin istehsalına başlamaq lazımdır. Eyni zamanda kino həftələrinin, kitab sərgilərinin, teatr festivallarının keçirilməsi də zəruridir.

Nazir bildirib ki, ötən il Bakıda Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş beynəlxalq kitab sərgisində İran da iştirak edərək ədəbiyyatını təbliğ etdi. Bu ilin əvvəlində Tehranda keçirilən teatr festivalında Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Qarabağın azad olunmasına həsr edilən tamaşa nümayiş etdirdi və bu, iranlı tamaşaçılar tərəfindən böyük maraqla qarşılandı. Bu istiqamətdə əməkdaşlığı davam etdirmək və gücləndirmək lazımdır.

Anar Kərimov səfərinin səmərəli olacağına ümidvar olduğunu bildirərək, İranın mədəniyyət və islam irşad nazirini Azərbaycana səfərə dəvət edib.

İranın mədəniyyət və islam irşad naziri Məhəmməd Mehdi İsmaili vurğulayıb ki, ölkəsinin yeni hökuməti qonşularla əlaqələrin inkişaf etdirilməsini xarici siyasətində prioritet siyasi xətt elan edib. Azərbaycan İranın yaxın qonşusu, dost və qardaş dövlətdir. Bu baxımdan İran Azərbaycan ilə münasibətlərinə xüsusi diqqət yetirir və bütün sahələr üzrə əməkdaşlıq etməkdə maraqlıdır.

Görüşdə Azərbaycanın İrandakı səfiri Əli Əlizadə də iştirak edib.

Görüşdən sonra keçirilən birgə mətbuat konfransında İran naziri mədəniyyət sahəsində əlaqələrin vacibliyini bir daha vurğulayıb. Bildirib ki, İran və Azərbaycan xalqları ortaq tarixə, mədəniyyətə, adət-ənənə və dini dəyərlərə malikdir. Bu dəyərlər siyasi-iqtisadi əlaqələrlə yanaşı, mədəni əlaqələrin də inkişaf etdirilməsi üçün böyük zəmin yaradır.

İranlı nazir nəzərə çatdırıb ki, mədəni əlaqələrin inkişaf etdirilməsi üçün heç bir maneə yoxdur. Qarşılıqlı əlaqələrin inkişafı üçün birgə filmlərin çəkilməsi, kitab yarmarkalarının, mədəniyyət həftələrinin keçirilməsi zəruridir və bu istiqamətdə işlər aparılır.

Nazir bildirib ki, İranın yeni hökuməti Azərbaycan Respublikası ilə münasibətlərin yaxınlaşmasına maneə olan bütün problemləri aradan qaldırmaq iradəsinə malikdir. Azərbaycanın mədəniyyət nazirinin İrana səfəri əlaqələrimizdə yeni mərhələnin əsasını yaradacaq və gələcək inkişafı üçün perspektivlər açacaq.

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov isə bildirib ki, iki ölkənin mədəni əlaqələrini yüksəltmək üçün çox böyük potensial var və bu potensialdan səmərəli istifadə etməliyik.



Birgə mədəni layihələr xalqlarımızın daha da yaxınlaşmasına imkanlar yaradacaq. Bu istiqamətdə aparılan işlər və əldə olunan razılaşmalar icra olunacaq.

### "Azərbaycanın Tehranda Mədəniyyət Mərkəzi açmaq istəyini dəstəkləyirik"

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov iyunun 20-də Tehrana səfəri çərçivəsində İranın İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Məhəmməd Mehdi İmanpur ilə görüşüb.

Görüşdə Anar Kərimov iki ölkə arasındakı qarşılıqlı əlaqələrdən danışıb. Bildirib ki, İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni nəqliyyat bağlantılarının yaradılması istiqamətində addımlar əlaqələrimizin inkişafını göstərir. Bununla yanaşı, mədəni əlaqələrin də inkişaf etdirilməsinə ehtiyac var. Mədəni əlaqələrin inkişafında mədəniyyət mərkəzlərinin fəaliyyətinin böyük əhəmiyyəti var. Azərbaycanda İranın Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Qarşılıqlı olaraq Tehranda da Azərbaycan Mədəniyyət Mərkəzinin açılması xalqlarımızın daha da yaxınlaşmasında mühüm rol oynayacaq.

Nəzərə çatdırılıb ki, Qarabağın işğaldan azad edilməsi ilə yanaşı, 132 kilometrlik Azərbaycan-İran sərhədi də azad olundu ki, bu da qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin əhatəli olacağına imkan yaradıb.

Qeyd olunub ki, mədəniyyət sahəsində imzalanan sənədlər kağız üzərində qalmamalı və icra olunaraq xalqlara fayda verməlidir. Mədəniyyət xalqları birləşdirən bir sahədir. Hazırda kino, teatr sahələrində əməkdaşlıq əlaqələri mövcuddur. Bu əlaqələri daha da gücləndirmək lazımdır ki, xalqlar bir-birini daha yaxşı tanısın və gələcək üçün əhatəli əməkdaşlıq yaratsın. Azərbaycan filmləri bir neçə dəfə İranda keçirilən "Fəcr" film festivalında nümayiş etdirilib. Bu sahədə əməkdaşlıq mədəni əlaqələrə böyük töhfə verər. Odur ki, birgə filmlərin çəkilişinə başlamaq və bu filmləri hər iki ölkədə nümayiş etdirmək vaxtı çatıb.

"İşğaldan azad olunan Şuşa şəhərində geniş quruculuq işləri aparılır. Bu şəhərdə keçirilən "Xarıbülbül" festivalında İranın folklor kollektivi də iştirak edib və maraqla qarşılanıb. Bundan sonra Şuşada keçiriləcək bütün mədəni tədbirlərdə İranın yaradıcı kollektivlərinin də iştirak etməsini istəyirik", – deyə Anar Kərimov bildirib.

Nazir beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən UNESCO kimi nüfuzlu təşkilatda Azərbaycan-İran əməkdaşlığına da toxunub. Qeyd olunub ki, bu təşkilat çərçivəsində əməkdaşlıq hər iki dövlətin maraqları əks etdirir.

Məhəmməd Mehdi İmanpur Azərbaycanın mədəniyyət nazirini İranda görməkdən məmnun olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanın Tehranda Mədəniyyət Mərkəzi açmaq istəyini dəstəkləyir. İran Azərbaycanla mədəni əlaqələri inkişaf etdirməkdə maraqlıdır. Şuşa şəhəri ilə İranın şəhərlərinin biri arasında qardaşlıq münasibətlərinin qurulmasını təklif edən Məhəmməd Mehdi İmanpur bildirib ki, Qarabağın işğaldan azad olunması İranda sevinclə qarşılanıb.

"Müştərək addımlarla mədəniyyət sahəsində əməkdaşlığımıza yeni səhifə açа bilərik. İki ölkə əl işləri sənayesi, teatr, müştərək filmlərin və sənədli filmlərin istehsalı və xəttatlıq sahəsində festivalların keçirilməsinə şərait yarada bilər", – deyə Məhəmməd Mehdi İmanipur əlavə edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Sonda hədiyyələr təqdim olunub.

# İqtisadi Əməkdaşlıq Təşkilatının Mədəniyyət İnstitutunda görüş



Azərbaycanın mədəniyyət naziri Anar Kərimov İrana səfəri çərçivəsində Tehranda yerləşən İqtisadi Əməkdaşlıq Təşkilatının Mədəniyyət İnstitutunu ziyarət edib.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xüsrav Noziri və Mədəniyyət İnstitutunun prezidenti Murodjon Buriboyev Anar Kərimova qurumun fəaliyyəti ilə bağlı məlumat veriblər.

Bildirilib ki, 1995-ci ildən fəaliyyət göstərən institutun əsas məqsədi İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr arasında mədəni əlaqələrin gücləndirilməsinə xidmət etməkdir. Xüsrav Noziri Azərbaycanın gələcəkdə Mədəniyyət İnstitutuna üzv olacağına ümidvar olduğunu bildirib.

Mədəniyyət naziri Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən olduğunu bildirərək, instituta da ölkəmizin üzvlüyünün nəzərdən keçiriləcəyini söyləyib.

Görüşdə müştərək mədəni irs, humanitar sahələrdə sıx əməkdaşlıq, mədəni mübadilə proqramlarının, muzey və digər istiqamətlərdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Kitabxana və arxiv işində əməkdaşlıq müzakirə edilib

Kitablar və qədim əlyazmalar bilik mənbəyi olmaqla yanaşı, həm də xalqların milli irsini gələcəyə çatdıran mühüm sənədlərdir. Bu sahədə əməkdaşlıq xalqların tarixini və milli-mənəvi dəyərlərini öyrənməyə, yaşadaraq gənc nəslə çatdırmağa imkan verir.



Bu fikirləri İranda səfərdə olan Azərbaycanın mədəniyyət naziri Anar Kərimov İranın Milli Kitabxana və Arxiv İdarəsinin müdiri Əlirza Muxtarpur ilə görüşündə bildirib.

Nazir qeyd edib ki, İranın çox zəngin kitabxanaları var və bu kitabxanalarda qədim əlyazmalar qorunur. İranın arxivlərində Azərbaycan və Qarabağa dair əlyazma və tarixi sənədlər saxlanılır. Bu sahədə qarşılıqlı əməkdaşlıq etməkdə maraqlıyıq. Kitabxana və arxiv sahəsində əməkdaşlıq xalqların ortaq tarixini öyrənib təbliğ etməyə geniş imkan yaradır. Azərbaycan və İranın təbliğ olunası çoxlu sayda qeyri-maddi mədəniyyət abidələri var. Əlyazma və qədim kitablar da bu abidələrin əsasını təşkil edir.

Anar Kərimov vurğulayıb ki, vaxtilə İrəvan xanlığında 269 məscid olub. Milli irsimizi məhv etmək məqsədilə bu məscidlərin hamısı dağıdılıb. İran arxivlərində İrəvan xanlığı ərazisindəki məscid və digər tarixi və dini abidələrimizə, milli irsimizə dair çoxlu sənədlər də var ki, onlarla tanışlıq irsimizin bərpasına və gələcək nəsillərə çatdırılmasına imkan verər.

Əlirza Muxtarpur kitabxana və arxiv sahəsində Azərbaycanla əməkdaşlıq etməyə hazır olduqlarını bildirib. Nəzərə çatdırıb ki, informasiya texnologiyalarının inkişafı ilə əlaqədar bu tarixi sənədlər və əlyazmalar elektron formaya salınaraq saxlanılır. Bu sənədlərlə tanışlıq üçün birgə işçi qrupun yaradılması məqsədəuyğundur. İşçi qrupu vasitəsilə qədim mənbələrin mübadiləsini həyata keçirmək və əməkdaşlığı davam etdirmək olar.

Azərbaycanın mədəniyyət naziri Qarabağın, Şuşanın tarixini əks etdirən kitabları İranın milli kitabxanasına hədiyyə edib.

Görüşdən sonra nazir Anar Kərimov dahi Azərbaycan şairi Nizami Gəncəvinin kitabxanada saxlanılan əlyazmaları və digər tarixi sənədlərlə tanış olub.

# Bakıdakı HESTOUREX sərgisində Qarabağın termal turizm imkanları təqdim olunacaq

Xəbər verdiyimiz kimi, 23-26 iyun tarixində Bakıda 4-cü HESTOUREX Dünya Sağlamlıq Turizmi Sərgisi təşkil olunacaq. Sərgi Dövlət Turizm Agentliyi, Azərbaycan Sahibkarlar Konfederasiyası və Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının dəstəyi ilə reallaşacaq.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası İdarə Heyətinin sədri Ruslan Quliyev iyunun 20-də keçirilən mətbuat konfransında beynəlxalq sərgi haqqında ətraflı məlumat verib.

Bildirib ki, "Baku Crystal Hall"da təşkil olunacaq sərgiyə 22 Avropa ölkəsi daxil olmaqla, dünyanın 60-dan çox məkanından 1000-ə yaxın sağlamlıq turizmi təşkilatı qatılacaq. Türkiyənin məşhur termal və sağlamlıq turizmi mərkəzlərinin də iştirak edəcəyi sərgidə çoxsaylı B2B görüşlərin təşkili planlaşdırılır. Həmçinin panellər və xüsusi təqdimatlar nəzərdə tutulub.

Ruslan Quliyev qeyd edib ki, sərginin özəlliklərindən biri də Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarının da termal turizm imkanlarının burada nümayiş etdirilməsi olacaq.

HESTOUREX sərgisinin təşkilatçısı, Alanya Sağlamlıq Turizmi Assosiasiyasının sədri Ahmet Girgin tədbirin Azərbaycanla Türkiyə arasında sağlıq turizmi əlaqələrinin genişlənməsində böyük rol oynayacağını diqqətə çatdırıb. Onun sözlərinə görə, ilk dəfə 2017-ci ildə keçirilən HESTOUREX sərgisi pandemiyaya qədər Türkiyədə düzənli olaraq təşkil edilib. "Pandemiyadan sonra ilk sərginin Bakıda keçirilməsinin səbəbi odur ki, Azərbaycanın zəngin termal turizm qaynaqlarının dünyada və qardaş Türkiyədə tanıdılmasına ehtiyac var", - deyə o vurğulayıb.

# Gəncədə "Min bir gecə"

## Fikrət Əmirovun baleti doğma şəhərdə nümayiş etdirilib

əvvəli səh. 1-də

Qeyd edək ki, premyerası 1979-cu ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında baş tutan baletin librettosu müəllifləri mərhum Maqsud və Rüstəm İbrahimbəyovlar, xoreoqrafi Nailə Nəzirova, quruluşçu rəssamı Toğrul Nərimanbəyov, geyim üzrə rəssamı Tahir Tahirovdur. Keçmiş SSRİ-nin bir sıra şəhərlərində, o cümlədən Moskvada, Sankt-Peterburqda səhnələşdirilən "Min bir gecə" baleti 1982-ci ildə Mərakeşdə və Bolqarıstanda, 1985-ci ildə Türkiyədə tamaşaya qoyulmuşdu.

Hazırda Akademik Opera və Balet Teatrının repertuarında olan tamaşanın truppa rəhbəri Xalq artisti Kamilla Hüseynova, tamaşanı idarə edən Əməkdar artist Yuri Lobaçevdir.

Əsas partiyaları Akademik Opera və Balet Teatrının solistləri – Əməkdar artistlər Anar Mikayılov (Şəhriyar), Nigar İbrahimova (Şəhrizad) və Cəmilə Kərimova (Nuridə) ifa ediblər.



Digər rollarda balet truppasının aparıcı solistləri Seymur Qədiyev (Nuridənin sevimli qulu), Ayan Eyvazova (Gözəl Budur), Timur Oduşev (Ələddin), İslam Məmmədov (Quldurbaşı), Dinara Şirinova (Qız), Liana Mirabdullayeva (Mərcanə), İntiqam Məmmədov (Ruh quşu) və başqaları oynayıblar.

# Qətərlə mədəniyyət sahəsində əməkdaşlıq müzakirə olunub

## Qarşılıqlı fəaliyyət planının hazırlanması təklif edilib

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyunun 17-də IX Bakı Qlobal Forumunda iştirak edən Qətər Dövlətinin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Həməd əl-Tani ilə görüşüb.



Görüşdə Azərbaycanla Qətər arasında mədəniyyət sahəsində əlaqələrin inkişafından, bu sahədə həyata keçirilməsi nəzərdə tutulan layihələrdən söhbət açılıb.

Anar Kərimov mədəniyyətin müxtəlif istiqamətləri üzrə əməkdaşlığın davamlı inkişafını xüsusi olaraq vurğulayıb. Nazir yeni yaradılan Azərbaycan Respublikası Kino Agentliyi haqqında həmkarına məlumat verərək, ölkəmizin film sənayesinin inkişafı istiqamətində Qətər təcrübəsini öyrənməkdə maraqlı olduğunu bildirib.

Anar Kərimov "Mədəniyyət naminə sülh" (Peace for Culture) qlobal çağırışı haqqında da qonaqlara məlumat verib. Qeyd edib ki, layihənin əsas məqsədi mədəniyyətin qorunması üçün regionda sülhün bərqərar olmasıdır. Bu məqsədlə Azərbaycan "Mədəniyyət naminə sülh" kampaniyası ilə dünyaya çağırış edir. Nazir Qətər Dövlətini də bu təşəbbüsə qoşulmağa dəvət edib.

Şeyx Əbdülrəhman bin Həməd əl-Tani qəbula görə nazirə təşəkkürünü bildirib və IX Bakı Qlobal Forumunda iştirakından məmnunluğunu ifadə edib. Qətər naziri iki ölkə arasında mədəni əlaqələrin genişləndirilməsinin vacibliyini xüsusilə vurğulayaraq bu istiqamətdə qarşılıqlı fəaliyyət planının hazırlanmasını təklif edib.

Söhbət zamanı Qətərdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, həmçinin azərbaycanlı və qətərli şairlərin kitablarının tərcümə və nəşr olunması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Ankarada Avropa Milli Kitabxanaları Konfransının illik iclası



20-21 iyun tarixlərində Ankarada CENL – Avropa Milli Kitabxanaları Konfransının (The Conference of European National Librarians) 36-cı illik iclası keçirilib. Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov iclasda iştirak edib.

CENL Avropa Şurasına üzv olan ölkələrin milli kitabxanalarını birləşdirən təşkilatdır. 1987-ci ildə təsis edilən qurumda hazırda 45 ölkə təmsil olunur. Hər il fərqli bir ölkədə keçirilən CENL-in illik iclasına bu il Türkiyə ev sahibliyi edir.

Türkiyə Prezident Kitabxanasında keçirilən iclası CENL sədri Frank Şoltse (Scholze) açaraq tədbirin yüksək səviyyədə təşkil edilməsində əməyi keçən bütün heyətə təşəkkürünü bildirib.

Türkiyə Milli Kitabxanasının direktoru Ali Odabaş iştirakçıları salamlayıb və konfransın işinə uğurlar arzulayıb.

Sonra 2021-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilən 35-ci iclasın protokolu və CENL-in illik hesabatı müzakirə edilib. Qurumun maliyyə hesabatı və növbəti il üçün büdcəsi müzakirə edilərək qəbul olunub.

Sonra Beynəlxalq Kitabxana Assosiasiyaları və Müəssisələri Federasiyası – İFLA-nın (The International Federation of Library Associations and Institution) prezidenti Barbara Lison "Milli kitabxanaların cəmiyyət üçün aktuallığı" mövzusunda çıxış edib.

Həmçinin Vernadski adına Ukrayna Milli Kitabxanası, Monteneqro Milli Kitabxanası, Çex Respublikası Milli Kitabxanası və Lüksemburq Milli Kitabxanası nümayəndələrinin çıxışları dinlənilib.

Birinci iş gününün sonunda iclas iştirakçıları xatirə fotosu çəkdirib.

İclasın ikinci iş günündə çıxışlar davam edib, gündəlik üzrə digər məsələlərə baxılıb. Növbəti CENL iclasının gələn il Fransa Milli Kitabxanasında keçirilməsi qərara alınıb.

***

36-cı CENL iclasında iştirak edən Milli Kitabxananın direktoru Kərim Tahirov IFLA-nın prezidenti Barbara Lison ilə görüşüb. Görüş zamanı Kərim Tahirov otuz ilə yaxın Ermənistanın işğalı altında qalan Azərbaycan torpaqlarının 2020-ci ildə azad edildiyini diqqətə çatdıraraq, azad olunmuş ərazilərdəki tarixi abidələrin, mədəniyyət müəssisələrinin dağıdılmasından danışıb. Bildirib ki, həmin ərazilərdə vaxtilə mövcud olan 975 kitabxana ümumilikdə 4,6 milyon nüsxə kitab fondları ilə birlikdə tamamilə məhv edilib.

Milli Kitabxananın direktoru bildirib ki, 2020-ci ilin dekabr ayında işğaldan azad olunan 10 rayonun kitabxana direktorları adından IFLA-nın o vaxtkı prezidenti Christine Mackenziyə məktubla müraciət edərək bu regionlardakı vəziyyəti yerində dəyərləndirmək üçün missiya göndərilməsini xahiş edib. Lakin, təəssüf ki, bu xahişə indiyədək cavab alınmayıb.

Bu səbəbdən Kərim Tahirov IFLA-nın yeni rəhbəri Barbara Lisona müraciət edərək, belə bir missiya təşkil edilməsini təkrarən xahiş edib.

Kərim Tahirov xanım Barbara Lisonu bu ilin oktyabrında keçiriləcək VIII Bakı Beynəlxalq Kitab Sərgisində iştirak etmək və işğaldan azad olunmuş ərazilərə baş çəkmək üçün dəvət edib. Qeyd olunub ki, bir zamanlar işğala məruz qalan ölkə olaraq Azərbaycan hər cür müharibəni və işğalı qətiyyətlə qınayır, İFLA və digər beynəlxalq təşkilatların da belə hallara ciddi münasibət bildirməsi çox vacibdir. İFLA prezidenti dəvəti qəbul etdiyini bildirərək, belə hadisələrdən çox təəssüfləndiyini qeyd edib.

# "İctimai əlaqələr və medianın əsasları"

## Mədəniyyət Nazirliyinin "Kommunikasiya meneceri" layihəsi üzrə treninqlər keçirilir

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi tərəfindən "Kommunikasiya meneceri" layihəsi həyata keçirilir. Layihə Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq, Mədəniyyət Nazirliyi sistemində reallaşdırılan islahatların tərkib hissəsi kimi təqdim olunub.



İyunun 20-də ADA Universitetində layihənin ikinci mərhələsi üzrə treninqlər başlanıb.

Universitetdə İxtisasartırma proqramlarının rəhbəri Nərgiz İsmayılova çıxış edərək bildirib ki, Mədəniyyət Nazirliyi və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə təqdim edilən "İctimai əlaqələr və medianın əsasları" adlı təlim kursunun əsas məqsədi kommunikasiya menecerlərinin peşəkar inkişafını dəstəkləməkdir.

"Kommunikasiya meneceri" layihəsinin koordinatoru, Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin əməkdaşı Məhəmməd Həmzəyev 20-24 iyun tarixini əhatə edəcək təlim kursu üçün yaradılan şəraitə görə ADA Universitetinə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, layihənin bu mərhələsi nazirliyin regional mədəniyyət idarələri üzrə təyin olunan menecerlərin PR, media və kommunikasiya fəaliyyətinin həyata keçirilməsinə dair bilik və bacarıqlarının artırılmasına istiqamətlənib.

ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini Aygün Hacıyeva çıxışında ilk olaraq universitet haqqında məlumat verib. Bildirib ki, universitet ilk layihələrini diplomatlar üçün təşkil edib. Layihənin əhəmiyyətinə diqqətçəkən A.Hacıyeva sözügedən sahə üzrə ünsiyyət bacarıqlarının vacibliyini bildirib, peşəkarlığın artırılması mövzusunda fikirlərini bölüşüb.

Daha sonra Aygün Hacıyeva və ADA Universiteti Fondunun prezidenti Natiq Hacıyev tərəfindən "Ünsiyyət və netvörkinq bacarıqları" (networking – faydalı əlaqələr, şəbəkə fəaliyyəti) mövzusunda ilk təlim keçirilib.

Qeyd edək ki, növbəti günlərin təlimləri "Ənənəvi və sosial media ilə işləmək bacarıqları", "Kommunikasiya planının qurulması", "Media işçiləri üçün əsas nitq və yazı bacarıqları", "İctimaiyyətlə əlaqələr fəaliyyətində iş bölgüsü" mövzularını əhatə edir. ADA Universiteti İctimai və Beynəlxalq Münasibətlər Məktəbində kommunikasiya və rəqəmsal media proqramının rəhbəri Şəfəq Mehrəliyeva tərəfindən aparılan treninqə ayrı-ayrı mövzular üzrə mühazirəçilər də dəvət olunacaq.

Xatırladaq ki, menecerlər media, sosial media və ictimaiyyət ilə əlaqələr üzrə məsul nümayəndə olaraq çalışdıqları qurumların tədbir və layihələrinin mediada işıqlandırılmasını, qurumların fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılmasını və bundan irəli gələn digər vəzifələrin yerinə yetirilməsini təmin edəcəklər.

**Lalə**

# "Muzeyi peşəkardan öyrənək" layihəsi davam edir



Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi tərəfindən "Muzeyi peşəkardan öyrənək" layihəsi həyata keçirilir. Aprel ayından reallaşdırılan layihənin məqsədi regionlardakı muzeylərin və əməkdaşlarının fəaliyyətini aktivləşdirmək, müasir çağırışlara cavab verən muzey mühitini formalaşdırmaqdan ibarətdir. Artıq layihə çərçivəsində Gəncə və Şəkidə təlim-seminarlar keçirilib.

Növbəti təlimin ünvanı Lənkəran olub. 17-18 iyun tarixlərində Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova və muzey eksponatlarının qorunması və qeydiyyatı üzrə direktor müavini, baş mühafiz Mira Məmmədxanova tərəfindən "Muzey sahəsində müasir çağırışlar", "Fond və mühafizə işi", "Dünya muzeyləri" mövzuları üzrə təlim-seminarlar təşkil olunub.

Şirin Məlikova Azərbaycan Milli Xalça Muzeyinin təcrübəsinə əsasən, "Muzey menecmenti", "Muzeydə təhsil proqramları" mövzularında, həmçinin Avropa Muzey Forumu tərəfindən ənənəvi olaraq hər il keçirilən "Avropada ilin muzeyi" (EMYA – European Museum of the Year Award) müsabiqəsinin 2022-ci il üzrə qalibləri barədə çıxış edib. Direktor "Avropanın ən yaxşı muzeyi – 2018" müsabiqəsində Azərbaycan Milli Xalça Muzeyinin "Muzey sahəsində ictimaiyyətlə işin qurulmasında innovasiyaların tətbiqinə görə" sertifikatına layiq görüldüyünü diqqətə çatdırıb. O, həmçinin iştirakçılar üçün "Bir eksponatın təqdimatı" adlı ustad dərsi və müxtəlif mövzular üzrə sorğular keçirib.

Baş mühafiz Mira Məmmədxanova isə "Fond işi", "Muzey əşyalarının təxliyə qaydaları" mövzuları üzrə çıxış edib.

Layihədə Lənkəran, Lerik və Astara rayonlarının Heydər Əliyev mərkəzlərinin, ev, xatirə və tarix-diyarşünaslıq muzeylərinin, rəsm qalereyalarının rəhbərləri, baş fond mühafizləri, həmçinin digər muzey mütəxəssisləri olmaqla 47 nəfər iştirak edib. İştirakçılar üçün maraqlı və səmərəli keçən təlim-seminarlarda onların sualları cavablandırılıb, mövcud problemlər haqqında fikir mübadiləsi aparılıb. Fond və ekspozisiya işinin səmərəli və müasir tələblərə uyğun təşkili barədə tövsiyələr verilib.

# Satira ustasının 160 illiyinə həsr olunmuş beynəlxalq onlayn konfrans

İyunun 20-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Azərbaycan Milli Məclisinin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi, Mirzə Ələkbər Sabir Fondu və digər qurumların iştirakı ilə görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirin (1862-1911) anadan olmasının 160 illiyinə həsr olunmuş onlayn konfrans keçirilib.

TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı konfransı giriş sözü ilə açaraq, təşkilatın türk xalqları arasında qardaşlığın möhkəmləndirilməsi, türk mədəniyyətinin dünyaya tanıdılması, ortaq dəyərlərimizin yeni nəsillərə ötürülməsi istiqamətində fəaliyyətindən bəhs edib. Bildirib ki, TÜRKSOY bu kontekstdə Türk dünyası üzrə müxtəlif tədbirlər, layihələr həyata keçirir. O cümlədən qardaş ölkələrimizdə Nizami Gəncəvi, Molla Pənah Vaqif, Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, İlyas Əfəndiyev, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Qara Qarayev, Abdulla Şaiq, Fikrət Əmirov kimi Azərbaycanın yetişdirdiyi dahi şəxsiyyətlərin xatirəsinə həsr olunmuş müxtəlif tədbirlər gerçəkləşdirilib.

Bu günlərdə Ankarada Mirzə Fətəli Axundzadənin 210 illiyi və Əhməd Cavadın 130 illiyi ilə bağlı tədbirlərin keçirildiyini də deyən B.Çakıcı XX əsr Azərbaycan ədəbiyyatının ən məşhur şairlərindən biri, türk ədəbiyyatında yeni satirik cərəyanın qurucusu Mirzə Ələkbər Sabirin 160 illiyi münasibətilə belə bir konfransa qatılmaqdan məmnunluğunu ifadə edib: "Azərbaycanın böyük şairi Seyid Əzim Şirvani tərəfindən açılan məktəbdə təhsil alan Sabir ədəbiyyata, poeziyaya onun təsiri altında qədəm qoymuş, eləcə də Firdovsi, Sədi, Füzuli kimi böyük klassiklərdən ilham alaraq, bir çox üslublarda şeirlər yazmışdır. Türk mədəniyyətinə xidmət edən, zənginləşdirən dahi şəxsiyyətlər sırasında Sabiri ehtiramla yad edir, əsərlərinin daim yaşayacağına inanıram".

Moderatoru şair Əkbər Qoşalı olan konfransda Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, Türk Ədəbiyyatı Fondunun prezidenti Serhat Kabaklı, Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Öməroğlu, Özbəkistan Yazarlar Birliyinin sədr müavini Qeyret Macid, "Baskurdistan hatunu" jurnalının baş redaktoru Gülnaz Kutuyeva, Qazaxıstanın "Yeni asır" jurnalının baş redaktoru Sayat Kamşıger, Moldova Respublikasının Qaqauz Yerindən şair Güllü Karanfil, Şimali Makedoniyanın "Körpü" jurnalının baş redaktoru Leyla Şərif və başqaları çıxış ediblər.

Çıxış edənlər Mirzə Ələkbər Sabirin həyatı, yaradıcılığı, satirası, poeziyasının incəlikləri, uşaq şeirlərində bəhs etdiyi mövzular, mənəvi dünyası haqqında söz açıb, şairin şeirlərindən nümunələr səsləndiriblər.

**Mehparə Sultanova**
**Ankara**

# "Sabirin sənəti və müasir dövr" – elmi sessiya

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Mirzə Ələkbər Sabirin sənəti və müasir dövr" mövzusunda elmi sessiya keçirilib.

Görkəmli şairin 160 illik yubileyinə həsr olunmuş sessiyada çıxış edən AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli şairin zəngin irsindən söz açıb.

Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülbəniz Babayeva "Molla Nəsrəddin" jurnalı və Mirzə Ələkbər Sabir", Özbəkistan Milli Universitetinin professoru filologiya elmləri doktoru Bahadır Kərimov "Mirzə Ələkbər Sabir və özbək ədəbiyyatı", AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fəridə Quliyeva "Mirzə Ələkbər Sabir təsviri sənətdə" mövzularında məruzə ilə çıxış ediblər.

İnstitutun baş elmi işçisi, filologiya elmləri doktoru Abid Tahirlinin "Mirzə Ələkbər Sabir Azərbaycan mühacirət mətbuatında", Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zamiq Təhməzovun "Mirzə Ələkbər Sabirin dili" və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor Yaşar Qasımbəylinin "Mirzə Ələkbər Sabir yaradıcılığı və türk xalqları poeziyasında yenilənmə mərhələsi" mövzularında məruzələri dinlənilib.

# Pənahəli xanın başdaşı bərpadan sonra ilk dəfə sərgilənir



əvvəli səh. 1-də

Pənahəli xan Ağdamın İmarət qəbiristanlığında dəfn edilmiş, orada qəbri üzərində türbə inşa olunmuşdu. Türbədə xanın qəbri üzərində olan başdaşı 1974-cü ildə Bakıya gətirilib, muzeyə verilib. Milli Azərbaycan Tarixi Muzeyinin Bərpa laboratoriyasında müasir vasitə və üsullardan istifadə etməklə başdaşı üzərindəki yazı və naxışlara xələl yetirmədən təmizlənib, zədəli yerləri bərpa edilib. Başdaşının nümayişi üçün muzeyin daimi ekspozisiyasının 1-ci mərtəbəsində zal ayrılıb, burada İmarət qəbiristanlığındakı türbənin maketi hazırlanıb və başdaşı qurulub. Zalda başdaşının yazısının oxunması, türbənin tarixi ilə bağlı məlumatlar olan informasiya panelləri, rəssam Əjdər Qafarovun "Pənahəli xan Cavanşir" adlı rəsm əsəri yerləşdirilib.

Eyni zamanda, zalda Qarabağ və Şuşa tarixi ilə bağlı digər nadir eksponatlar - üzərində Qarabağda zərb edilməsi barədə yazı olan XIV əsrin gümüş pulu, Qarabağ xanlığının pulları, Şuşa qala qapılarının iki gümüş açarı, İbrahimxəlil xanın (1763-1806) hakimiyyət rəmzi olan şeşpəri, nadir sənəd, foto və rəsmlər, musiqi alətləri, şair Molla Pənah Vaqifin məqbərəsi inşa edilən zaman tikinti yerində aşkarlanan gil qab və s. nümayiş olunur.

Təqdimatda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Gövhər Baxşəliyeva muzeydə aparılan tədqiqatların əhəmiyyətindən bəhs ediblər.

№46 (1919)
22 iyun 2022
www.medeniyyet.az

# Mədəniyyət naziri Sabirabadda tarixi tikiliyə və muzeyə baş çəkib

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimov iyunun 16-da Beyləqan rayonunda vətəndaşların qəbulunu keçirib, həmçinin rayondakı bir sıra mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub, tarixi abidələrə baş çəkib.



Anar Kərimov Beyləqan rayonuna səfərdən qayıdarkən iyunun 17-də Sabirabad şəhərində olub.

Nazir Sabirabad şəhərində yerləşən tarixi tikiliyə – "Köhnə hamam"a baxış keçirib. Bildirilib ki, "Köhnə hamam" 1900-cü ildə yerli sakin Seyid Mirmusa Tağıyev tərəfindən inşa olunub və istifadəyə verilib. Tikili Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına (inventar nömrəsi 4951) daxil edilib.

Anar Kərimov Sabirabad Tarix-Diyarşünaslıq Muzeyində Mədəniyyət Nazirliyinə ayrılan büdcə vəsaiti hesabına aparılan bədii tərtibat işləri ilə də tanış olub. Nazir işlərin vaxtında, keyfiyyətlə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

# "Şuşa İli" tədbirləri davam edir

Gəncə RMİ-nin tabeliyində fəaliyyət göstərən Xocalı şəhər 3 nömrəli Uşaq musiqi məktəbi "Şuşa – mədəniyyət beşiyimiz" adlı konsert təşkil edib. Regional idarənin rəisi Vasif Cənnətov, rəis müavini Asəf Məmmədov, şəhid ailələri, qazilər, rayon ictimaiyyətinin izlədiyi konsertdə məktəbin müəllim və şagirdlərinin ifasında musiqilər səsləndirilib.

***




Lənkəran RMİ-nin tabeliyindəki O.Kazımi adına Astara şəhər Uşaq musiqi məktəbində Bakı şəhər 28 nömrəli Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə "Şuşa İli"nə həsr olunmuş konsert keçirilib. Hər iki məktəbin şagird və müəllimlərinin ifasında təqdim olunan konsert proqramı maraqla qarşılanıb.

***

Biləsuvar RMİ-nin əhatə etdiyi Camal İsmayılov adına Neftçala rayon Uşaq incəsənət məktəbində fortepiano ixtisası üzrə ansambl müsabiqəsi keçirilib. Şagirdlər 1-ci, 2 -ci, 3-cü dərəcəli diplomlar və tərifnamələrlə təltif ediliblər.

# "Dayanıqlı moda: tekstilin gələcəyi"



F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası nəzdində Urban Mərkəzində "Dayanıqlı moda: Tekstilin gələcəyi" adlı sərginin açılış mərasimi keçirilib.

Mədəniyyət Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə RMİ, Azərbaycan Milli İncəsənət Muzeyi və İsveçin Azərbaycandakı Səfirliyinin birgə əməkdaşlığı çərçivəsində gerçəkləşən sərgi İsveç İnstitutu tərəfindən tədqiqatçılar və moda mütəxəssisləri ilə birlikdə hazırlanıb. Moda sənayesinin əsas problemlərinin işıqlandırıldığı sərgidə daha dayanıqlı gələcək üçün İsveçdə irəli sürülən həll yolları və təşəbbüslər nümayiş olunur.

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov çıxış edərək sərginin Gəncədə keçirilməsinə dəstək verən qurumlara təşəkkürünü bildirib, tədbirin əhəmiyyətini vurğulayıb.

Gəncə Şəhər İcra Hakimiyyətində şöbə müdirinin müavini Azər İbrahimov icra başçısı Niyazi Bayramovun adından iştirakçıları salamlayıb, İsveç səfiri Kristian Kamilə Gəncə şəhərində belə sərginin təşkilinə görə təşəkkür edib.

Səfir Kristian Kamil Gəncə şəhərində xoş qarşılandığı üçün öz təşəkkürünü bildirib və sərgi haqqında məlumat verib.

Sərginin kuratoru, Azərbaycan Milli İncəsənət Muzeyinin nümayəndəsi Könül Rəfiyeva nümayiş olunan nümunələr haqqında söz açıb.

Sərgidə isveçli fotoqraf Elizabet Tolun Azərbaycana səfərləri zamanı Bakı, Qəbələ və Naxçıvanda çəkdiyi moda fotoşəkilləri, İsveç meşələrinin fotoları da yer alıb.

"Dayanıqlı moda: tekstilin gələcəyi" sərgisi 17 iyul 2022-ci il tarixinədək açıq olacaq. Sərgiyə giriş sərbəstdir.

# Tovuzda "Azərbaycan aşıq sənəti" sərgisi



Tovuz rayon Aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində Xalq rəssamları Arif Hüseynovun və Sirus Mirzəzadənin "Azərbaycan aşıq sənəti" adlı tematik sərgisi açılıb.

Tədbirdə çıxış edənlər aşıq sənətinin rəssamların əsərlərində əks olunmasından danışıblar. Bildirilib ki, Arif Hüseynovun və Sirus Mirzəzadənin əsərlərində xalqımızın qopuzlu dünyasına müraciət davamlı və daha əhatəlidir. Özündə ənənə ilə müasirliyi qovuşduran bu lövhələrin hər birində müşahidə olunan vətənpərvərlik ruhu rəssamların Vətənimizə, onun əvəzolunmaz mənəvi dəyəri olan saza, aşıq sənətinə sonsuz sevgi və ehtiramını göstərir.

Sonra Nizami adına Mədəniyyət evində Azərbaycan Televiziyası "Telefilm" Yaradıcılıq Birliyinin istehsalı olan aşıq Mikayıl Azaflıya (1924-1990) həsr edilən "Qoca qartalın əbədi uçuşu" adlı sənədli filmin təqdimat mərasimi keçirilib.

Milli Məclisin Mədəniyyət komitəsinin dəstəyi ilə nümayiş olunan ekran əsərində M.Azaflının keşməkeşli ömür yolu işıqlandırılıb. Quruluşçu rejissoru Elnurə Kazımova olan filmin çəkilişləri Tovuz rayonunda, Əsrik çayının sahillərində, aşığın ana yurdu Azaflı kəndində, eləcə də Cirdək, Qaralar, Əlimərdanlı və digər kəndlərdə aparılıb.

# Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrup azad edilmiş ərazilərdə

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun üzvləri və ekspertlərdən ibarət heyət iyunun 16-17-də Cəbrayıl, Zəngilan rayonlarında və Şuşa rayonunun Daşaltı kəndində mədəni, tarixi və dini abidələrə baxış keçirib.



Səfər çərçivəsində Cəbrayıl rayonunda yerləşən, dövrünün ən əzəmətli mühəndis qurğularından olan Xudafərin körpülərinə, rayon ərazisində Sultan Allahverdi hamamına və Daşkəsən kəndində məscidə baxış keçirilib. Baxış zamanı, eləcə də onun nəticələrinə dair Şuşa şəhərində keçirilən müzakirələrdə abidələrin mühafizəsi, qorunması, bərpası və inkişafı üzrə alim-mütəxəssislərin rəyi dinlənilib, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

Şuşanın Daşaltı kəndi turizm baxımından mühüm potensiala malikdir. Dövlət Turizm Agentliyinin nümayəndələri kəndin gələcəkdə turizm məkanı kimi istifadəsi ilə bağlı işçi qrupun üzvlərini məlumatlandırıblar.

Daha sonra işçi qrup Zəngilan rayonuna səfər çərçivəsində Məmmədbəyi kəndindəki XIV əsrə aid Səkkizguşəli türbəyə, Malatkeşin kəndindəki XIX əsrə aid məscidə və Azərbaycanın Orta əsrlər memarlığının ən qiymətli abidələrindən olan "Şəhri Şərifan"a baxış keçirib.

İşçi qrupun üzvləri Zəngilanın Ağalı kəndində inşa edilmiş uşaq bağçası və məktəblə tanış olub, heyətə "Ağıllı kənd" haqqında ətraflı məlumat verilib.

Səfər çərçivəsində mədəni, tarixi və dini abidələrə keçirilmiş baxışın nəticələrinin müzakirəsi, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi məqsədilə Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupun Ağalı kəndində iclası keçirilib. İclasda aidiyyəti qurumlar ərazilərdə mədəni irsin qorunması, bərpası ilə bağlı rəy və təkliflərini bildirib, işğaldan azad edilmiş ərazilərdə təhsil müəssisələri və gələcəkdə məskunlaşacaq əhalinin asudə vaxtlarının səmərəli təşkili üçün yaradılacaq mədəniyyət ocaqları barədə ətraflı müzakirələr aparılıb.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılıb. Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev başçılıq edir.

# Dastana dönən qəhrəman oğullar unudulmur




Sumqayıt RMİ-nin tabeliyindəki Şuşa rayon Mədəniyyət evi və Şuşa rayon Malıbəyli kənd Mədəniyyət evinin kollektivləri şəhid polkovnik-leytenant, "Azərbaycan Bayrağı" ordenli Zaur Cəfərovun ailəsinə baş çəkiblər.

***



Xaçmaz RMİ-nin əhatə etdiyi Qusar rayon Mədəniyyət Mərkəzi Köhnə Xudat Qazmalar kənd Sənətkarlıq evinin əməkdaşları şəhid Ayaz Həmidovun ailəsinə baş çəkib, yaxınları ilə birlikdə məzarını ziyarət ediblər.

***

Şəki RMİ Şəki şəhər MKS-nin N.Nərimanov adına 8 nömrəli kitabxana filialı və M.İsmayılov adına Diyarşünaslıq evinin işçiləri şəhid Kazım Məmmədsalahovun ailəsini ziyarət edib.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı I Qarabağ müharibəsi şəhidi, Milli Qəhrəman Səfiyar Behbudovun (1967-1992) anadan olmasının 55 illiyi münasibətilə "Dastana dönən oğullar" adlı anım günü keçirib. Çıxışlarda qəhrəmanın həyatı və döyüş yolu haqqında söz açılıb, məktəblilər vətənsevərlik haqqında şeirlər səsləndiriblər.

MKS-nin 2 saylı kitabxana filialı 18 saylı orta məktəbdə Vətən müharibəsi şəhidləri Nurhan Abbasov və Həsən Bayramovun doğum günləri münasibətilə "Qəhrəmanlıq yolu" adlı tədbir keçirib.

# Bölgələrdə müxtəlif səpkili tədbirlər



Bərdə RMİ Bərdə rayon Mədəniyyət Mərkəzinin filialı olan Şirvanlı kənd Folklor evinin təşkilatçılığı ilə XVIII-XIX əsrlərə aid Şirvanlı hamamının ətrafında tədbir-sərgi keçirilib. Tədbir iştirakçıları əvvəlcə hamam binası ilə tanış olublar. RMİ-nin rəisi Vəsilə Möhsümova əhalinin mədəni istirahətinin təmin olunması məqsədilə keçirilən bu cür tədbirləri yüksək qiymətləndirib. Tədbirdə qədim əşyalar, əl işləri, kitab sərgisi təşkil edilib, Folklor evində dram dərnəyi üzvlərinin hazırladığı "Qaravəlli" tamaşası maraqla qarşılanıb.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Azərbaycan dramaturgiyasının banisi – Mirzə Fətəli Axundzadə" başlığı altında tədbir təşkil olunub. Şöbənin kitabxanaçısı Kifayət Sadıqova oxuculara yazıçının həyat və yaradıcılığı haqqında məlumat verib. Sonda oxucular M.F.Axundzadənin əsərlərindən parçalar söyləyib və ədibin kitabxananın fondunda olan əsərləri ilə tanış olublar.

RMİ-nin əhatə etdiyi Samux rayon Mədəniyyət Mərkəzində "İnsan alverinə yox deyək!" adlı tədbir təşkil olunub. Mərkəzin direktor vəzifəsini icra edən Arif Məmişov çıxış edərək insan alverinə qarşı ölkəmizdə həyata keçirilən tədbirlərdən danışıb.

***

Lənkəran RMİ Lənkəran şəhər C.Cabbarlı adına 1 nömrəli Uşaq musiqi məktəbinin kollektivi Sumqayıt RMİ Abşeron rayon Xırdalan şəhər 11 illik Musiqi məktəbində konsert proqramı ilə çıxış edib. Konsertdən əvvəl Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev, Xırdalan şəhər Musiqi məktəbinin direktoru, Əməkdar müəllim İkram Manafov və Lənkəran şəhər 1 nömrəli Musiqi məktəbinin direktoru Camal Həsənov bu cür görüşlərin əhəmiyyətindən söz açıblar. Lənkəran məktəbinin "Əziz Şuşa, sən azadsan!" adlı konsert proqramı maraqla qarşılanıb.

***



Ağdaş RMİ-nin əhatə etdiyi Ucar Rayon Tarix-Diyarşünaslıq Muzeyində böyük şair və maarif xadimi Mirzə Ələkbər Sabirin 160 illik yubileyinə həsr olunmuş "Sabir və satira" adlı dəyirmi masa təşkil edilib. Tədbirdə muzeyin kollektivi və Ucar Gənclər Kitabxanasının əməkdaşları iştirak ediblər. Muzeyin direktoru Nəzakət Qasımova Sabirin həyat və yaradıcılığı haqqında məlumat verib. Sonda muzeyin elmi işçisi Vəfa Hüseynova şairin satiralarından nümunələr səsləndirib.

***



Ağcabədi şəhərindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkında "Uşaq festivalı" keçirilib. Ağcabədi RMİ, Gənclər üçün Təhsil Mərkəzi Qarabağ regional ofisi, "Güvən" Xeyriyyə və Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən festivalda xüsusi qayğıya ehtiyacı olan uşaqlar, şəhid ailələrinin övladları iştirak ediblər.

***

Ağstafa RMİ-nin təşkilatçılığı ilə Tovuz rayon Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində rayonda yaşayıb-yaradan gənc rəssamların, həmçinin fiziki qüsurlu istedadların əl işlərinin satış-sərgisi keçirilib. Tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyev, mədəniyyət müəssisələrinin rəhbər və əməkdaşları iştirak ediblər.

***

Sumqayıt RMİ Sumqayıt şəhər Əhməd Bakıxanov adına 1 nömrəli Uşaq incəsənət məktəbi xalq çalğı alətləri şöbəsinin şagirdi Mustafa Məmmədli (tar) Qazaxıstanın Astana şəhərində onlayn keçirilən "Europe-Asia Festival"da Qran-pri mükafatına layiq görülüb. Müsabiqədə şagirdin uğurlu çıxışına görə müəllimi Etibar Sadıqov və konsertmeyster Səbinə Əliyeva təşəkkürnamə ilə təltif olunublar.

# Sağlam gələcək üçün: bəşəri bəla haqqında həqiqətlər

26 iyun Narkomaniyaya və narkobiznesə qarşı beynəlxalq mübarizə günüdür. Əlamətdar gün BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən təsis edilib. Bu gün hər il ölkəmizdə də qeyd olunur.

İsmayıllı RMİ-nin tabeliyindəki Şamaxı rayon Mədəniyyət Mərkəzində Narkomaniyaya və narkobiznesə qarşı beynəlxalq mübarizə günü ilə əlaqədar elmi-praktik konfrans keçirilib. Çıxışlarda qeyd olunub ki, problemin həlli üçün təbliğat və maarifləndirmə işi daha da genişləndirilməlidir. Sonda "Ölüm qapıda" qısametrajlı filmi nümayiş olunub, gənclərin sualları cavablandırılıb.

***

Sumqayıt RMİ Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində "Narkotiklər haqqında həqiqətlər" mövzusunda maarifləndirici konfrans keçirilib. Tədbirdə Daxili İşlər Nazirliyinin nümayəndəsi, narkomaniya üzrə ekspert, həkimlər və gənclər iştirak ediblər.

***

Şəki RMİ M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Narınqala folklor evinin kollektivi tərəfindən Şəki şəhər 1 nömrəli tam orta məktəbində "Ağ ölüm" mövzusunda yuxarı sinif şagirdlərinə mühazirə oxunub.

Oğuz rayon MKS-nin Şirvanlı kənd kitabxanasında "Sağlam gələcək naminə narkomaniyaya yox deyək!" başlığı altında maarifləndirici tədbir təşkil olunub. Kitabxananın müdiri Taliyə Xəlilova bildirib ki, gənclərimiz narkomanlığın necə bir bəla olduğunu dərk edərsə, bu bəladan uzaq durar. Sonda mövzu üzrə hazırlanan sərgiyə baxış olub.

***



Ağstafa RMİ Qazax rayon Heydər Əliyev Mərkəzi və rayon Müalicə-Diaqnostika Mərkəzinin birgə təşkilatçılığı ilə "Narkomaniya bəşəriyyətin bəlasıdır" mövzusunda tədbir keçirilib. Heydər Əliyev Mərkəzinin direktoru Ceyhunə Hüseynova, rayon Müalicə-Diaqnostika Mərkəzinin həkim-terapevti Elxan Bayramov mövzu ilə bağlı çıxış ediblər. Vurğulanıb ki, narkomaniya yaddaş və təfəkkürü pozur, orqanizmi zəhərləyir, daxili orqanların sıradan çıxmasına səbəb olur. Tədbirdə narkotik vasitələrin yaratdığı fəsadlardan bəhs edən videoçarx nümayiş olunub.

# Köhnə-yeni teatr haqqında

Günümüzün milli teatr sənətindən söz açılarkən ötən əsrin ortalarının qızıl dövrü, teatrın yeni texnologiyalar rəqabətdə uduzması kimi nostalji notlara köklənmələr çox olur. Hərçənd bu təkcə bizimlə bağlı məsələ deyil və ümumən bütün dünyada teatrla bağlı vəziyyət bu cür dəyərləndirilir. Daha çox istinad etdiyimiz, daha doğrusu, proses olaraq eyni sistemdən bəhrələnən Rusiya teatrında da. Sadəcə, zamanla ayaqlaşan, onun tələblərini duyan və adekvat reaksiyalar verə bilən teatr modeli formalaşmalıdır. Bunu Rusiyadan gələn həmvətənimiz, iki gün ərzində söz-sovu teatr olan Timur Bədəlbəyli də dedi...





16 və 17 iyun tarixində Mədəniyyət Nazirliyinin və YARAT Müasir İncəsənət Məkanının birgə layihəsi olan "Mədəni yenilənmə" layihəsi çərçivəsində növbəti yaradıcılıq görüşü reallaşdı. Bu dəfə sənətsevərlər Azərbaycanın və Rusiyanın Əməkdar artisti, aktyor, rejissor Timur Bədəlbəyli ilə yaxından tanış olmaq, təcrübəsi, keçdiyi sənət yolu barədə məlumat almaq imkanı qazandılar.

Timur Bədəlbəyli Boris Şukin adına Moskva Ali Teatr Məktəbinin (Yuri Lyubimovun kursu) məzunudur. Təhsilini bitirdikdən sonra Moskva Taqanka Teatrına dəvət olunur və tez bir zamanda truppanın aparıcı aktyoruna çevrilir. Kinoda da aktiv fəaliyyət göstərir, 20-dən çox filmdə çəkilib.

Maraqlı düşüncə tərzi və oyun üslubu olan aktyor-rejissor bakılı teatrsevərlərlə yaradıcılıq görüşünə də dolğun proqramla gəlmişdi.

Səmimi və maraqlı anlarla yadda qalan ilk görüş günü sənət yolu, çalışdığı teatrlar və aktyor kimi yaradıcılığına qatdığı özünəməxsus çalarlardan söz açdı. Həmçinin aparıcısı olduğu "Böyük mistifikasiyalar" sənədli filmlər silsiləsinin bir buraxılışı da nümayiş olundu. Ardınca tamaşaçıları, daha çox da dostları ilə dialoqları sayəsində onunla görüşə gələnlərə yeni dövrün teatrı barədə danışdı. Gitarada solo ifaları ilə gecəyə fərqli ovqat da qatmağa çalışdı.

Beləcə, hər iki günü qonaqlar, xüsusən sənətdə ilk addımlarını atan gənc rejissor və aktyorlar üçün maraqlı, məhsuldar, dinamik etməyə çalışdı. Həmçinin aktyor və rejissorlar üçün "Dünya teatr reformatoru Yuri Lyubimovun yaradıcılıq metodu", "Şərti total teatr və "sintetik" aktyorun tərbiyəsi" mövzularında ustad dərsi də verdi. Iştirakçıların daha çox marağına səbəb olan "Sintetik" aktyorun tərbiyəsi" mövzusu ətrafında fərqli istiqamətlərdə bilgilərini bölüşdü.

Müəllif teatrı və postmodern teatrın perspektivləri də görüşün əsas müzakirə mövzularından idi.

Söhbət zamanı Azərbaycana bağlılığı, Bakı sevgisindən də söz açdı: "Mən Moskvada multikultural ailədə anadan olmuşam və uşaqlıqda məni Azərbaycana gətiriblər, burada onun mədəniyyətinin müxtəlif aspektlərini öyrənmişəm. Bu, əlbəttə ki, mənə yaxındır və mən bunu doğma kimi qəbul edirəm. Azərbaycan mədəniyyətinə, dilinə sevgim, bağlılığım var. Düzdür, bu dildə o qədər də danışa bilmirəm. Amma buna cəhd edirəm.

Onda da, indi də Bakıya heyran olmuşam. Xüsusən indisinə, bu başdan-başa dəyişən və müasirləşən halına. Qəribə bir energetikası var Bakının. Burada həm Şərq, həm də Qərb elə orqanik, elə səssiz görüşür ki, ayırd edə bilmirsən".

Qonaqların, xüsusən ondan nə isə öyrənmək üçün durmadan maraqlı suallar verən gənclərlə fikir mübadiləsi, ortaq mövzularda dialoqa meyl edən aktyorun əsas tövsiyəsi, təbii ki, çox mütaliə və sistemli təhsil ilə bağlı oldu.

Orta təhsili Moskvada xüsusi fransız məktəbində alan, ardınca Yuri Lyubimovun kursu ilə Şukin Teatr Məktəbinə daxil olan və Taqanka Teatrında aktyor kimi çalışan qonaq bu yolun elə də asan olmadığını dedi. Çox işləmək, özünü realizə etmək üçün sənətə, peşəyə sevgini ön plana çıxardı. Məhz bu sayədə çalışdığı teatrın truppasının aparıcı aktyoru olduğunu və uzun illərdən sonra özünü rejissor kimi də sınadığını bildirdi. Dolayısı ilə, yaxşı rejissorun da məhz aktyor truppasında formalaşa biləcəyini, rejissuranın nəzəriyyədən çox aktyor, səhnə ilə işdən başladığını diqqətə çatdırdı.

Məşhur teatr islahatçısı, özünə ustad hesab etdiyi Yuri Lyubimovun yaradıcılıq üsulu barəsində də bilgilərini bölüşən Timur Bədəlbəyli daha çox obraz üzərində iş, aktyorun improvizə imkanları və dramaturji material üzərində aktyorla rejissorun birgə "oxusunu" gözdən keçirdi.

Tamaşaçılar üçün xüsusilə maraq doğuran "müəllif teatrı" mövzusu və postmodern teatrın perspektivləri ətrafında da danışan qonaq bu teatrın uzunömürlü olmasının hazırkı durumda o qədər də real görünmədiyini dedi. Üstəlik, heç də hər rejissorun bu imkana, yaradıcılıq baxımdan mükəmməlliyə çatmadığını vurğuladı.

"Siyasi teatr" anlayışı, dövlətin, ümumən cəmiyyətin onun cəsarətinə münasibəti də görüşün müzakirə mövzularından oldu. Yaxın illərdə bununla bağlı indi komik görünən ağır xatirələrini də bölüşən qonaq yaradıcılıq sərbəstliyinin bütün hallarda bəşəri həqiqətlərə və böyük sənətə söykənməli olduğunu bildirdi.

Teatr marketinqi və menecmenti, müasir teatrın təbliğatı problemləri, teatrın yaradıcı təşkilat kimi direktor və baş rejissor idarəetməsində vəzifə bölgüsü kimi məsələlərə də toxunan Timur Bədəlbəyli sənətə gələn gənclərə tövsiyələrini də verdi. Teatr mütəxəssisi xüsusən poeziya, şeir üzərində məşqlərin aktyorların nitq vərdişləri və obrazlarına inteqrasiyasında mühüm əhəmiyyət kəsb etdiyini dedi. Bu sayədə aktyorun fərqli mətn və ona uyğun vəziyyətlərə sürətli gedişlərdə tempini qorumaq şansı qazandığını və digər tərəfdən bölgü – mətn və mizan üzərində tarazlığı saxlaya biləcəyini bildirdi.

Bu günün rejissurasının mizan vermək və dramaturji mətnə görə səhnədə plan qurmaqdan başqa bir formaya keçdiyini və heç də hər quruluşçunun bu yeniliyi asanlıqla reallaşdıra bilmədiyini, problem kimi aktyor-rejissor əməkdaşlığının zəifliyini önə çəkdi. Klassik, yoxsa avanqard teatr dilemmasında isə daim klassikanın yaşayacağını və digər formaların yalnız ona əsaslandığı təqdirdə uğur qazanacağını da qətiyyətlə dilə gətirdi.

Beləcə, şəxsi təcrübəsindən və öyrəndiklərindən onu dinləməyə gələnlərə də nə isə izah etməyə, az da olsa, məlumatlarını zənginləşdirməyə cəhd etdi.

Xatırladaq ki, Timur Bədəlbəyli otuz ilə yaxın yaradıcılıq fəaliyyəti dövründə təkcə teatrda deyil, həm də filmlərdə, seriallarda oynadığı rollarla yadda qalıb. O, Azərbaycanda "Kabusun gözü ilə", "Qorxma, mən səninləyəm! 1919", "Əlvida, cənub şəhəri" kimi filmlərdə rol alıb. "Əlvida, cənub şəhəri" filmindəki (ssenari müəllifi Rüstəm İbrahimbəyov, rejissor Oleq Səfərəliyev) roluna (Alik) görə "Şərq-Qərb" Beynəlxalq Film Festivalının (Bakı, 2006) və Batumi Beynəlxalq Arthaus Filmləri Festivalının (2007) mükafatlarına layiq görülüb. Moskvada Yuri Lyubimov adına Teatr Sənətinin İnkişafı Xeyriyyə Fonduna da rəhbərlik edir.

**Həmidə Nizamiqızı**

# "Musiqiçilərin pedaqoji ustalığı"

## BMA-nın yubileyinə həsr olunan beynəlxalq festival-müsabiqə başa çatır

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) bu təhsil ocağının nəzdində Orta ixtisas musiqi məktəb-studiyasının 40 illiyinə həsr olunmuş "Musiqiçilərin pedaqoji ustalığı" birinci beynəlxalq festival-müsabiqənin (videoyazılar əsasında) dinləmələri yekunlaşıb.

Məktəb-studiyadan verilən məlumata görə, Təhsil və Mədəniyyət nazirliklərinin təşkilati dəstəyi ilə keçirilən festival-müsabiqədə Qazaxıstan, Türkiyə, Ukrayna, İsrail, Rusiya, ABŞ və digər ölkələrdən də nümayəndələr təmsil olunur. Festival-müsabiqənin nəticələri yaxın günlərdə elan ediləcək.

Layihənin məqsədi müxtəlif ölkələrin istedadlı musiqiçiləri arasında əlaqələrin yaxınlaşması və genişləndirilməsi, ibtidai, orta və ali təhsil müəssisələrində bütün fənlər üzrə ümumi və peşəkar musiqi təhsilinin həm yerli, həm də xarici müəllimlərin qabaqcıl təcrübələrinin qarşılıqlı mübadiləsindən ibarətdir.



Təşkilat komitəsi və münsiflər heyətinin rəhbəri BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli, festival-müsabiqə layihəsinin müəllifi akademiyanın nəzdində Orta ixtisas musiqi məktəb-studiyasının direktoru, Əməkdar incəsənət xadimi, professor Tərlan Seyidovdur.

Qaliblər beynəlxalq münsiflər tərəfindən müəyyən olunur.

**Lalə**

# "Yaratdığım dünyamı fırça ilə boyayandan sonra özümü xoşbəxt hiss edirəm"

İyunun 17-də YARAT Müasir İncəsənət Məkanında tanınmış rəssam, UNESCO nəzdində Beynəlxalq İncəsənət Assosiasiyası, Beynəlxalq Plastik Sənətlər Assosiasiyası və Türkiyənin Bakırköy Rəssamlar Cəmiyyətinin üzvü Lətafət Məmmədova ilə görüş keçirilib. Görüş çərçivəsində rəssamın 30-a yaxın əl işi də nümayiş olunub.





Sual-cavab formatında keçən görüşdə Lətafət Məmmədova sənətə gəldiyi günləri, köhnə Bakını, uşaqlıq illərini xatırlayıb. Bildirib ki, o, rəssamların əhatəsində böyüyüb. Atası ona bir müəllim kimi rəssamlığın bütün sirlərini öyrədib. Bu səbəbdən onun həyatda ən böyük müəllimi atasıdır. İndinin özündə belə emalatxanasında çalışarkən atasının ona öyrətdiyi texnikalardan istifadə edir.

İlk sərgisini xatırlayan Lətafət Məmmədova bildirib ki, 1999-cu ildə Milli İncəsənət Muzeyində fərdi sərgisini açmaq istəyini bildirəndə bunun onun çox çətin bir iş olacağını deyiblər, çünki sərgi rəssam üçün bir imtahandır və yalnız peşəkar rəssamlar bu işin öhdəsindən gələ bilər. Qeyd edib ki, o zamanlar dolğun həyat təcrübəsi olmasa da, o, bu imtahanı uğurla verə bilib.

Rəssam bildirib ki, sonradan ona Türkiyədən dəvət gəlib. O, ixtisasını artırmaq üçün İstanbula yola düşüb. Bakırköy Rəssamlar Cəmiyyətində türk rəssamlıq məktəbi ilə tanış olub, onun incəliklərini öyrənib. Ancaq atasının ona cızdığı xətdən kənara çıxmayıb. İndi rəssam Türkiyədə müəllim kimi çalışır və bir neçə tələbə də yetişdirib.

İşlərində qadın motivlərinin olduqca çox olduğunu deyən rəssam bildirib ki, qadın onun aləmində bir gözəllik simvoludur: "Tarixdə bir çox rəssamlar qadın obrazına müraciət edib, mənim yaratdığım qadınlarda isə bir kübarlıq hiss olunur. Bununla belə, mənim müxtəlif mövzularda işlərim var. Ən çox sevdiyim mövzu Bakının Qız qalası və İstanbulun Ayasofyasıdır".

"Hər bir rəssamın beynində bir "bilik arxivi" yerləşir. Hansısa kiçik bir detal görəndə onun ətrafında uzun müddət düşünürəm və ideya tam yetişəndən sonra işə başlayıram" deyən Lətafət Məmmədova qeyd edib ki, özünü təklikdə daha yaxşı hiss edir. Ancaq pandemiya dövründə qapalı şərait onu depressiyaya salıb. İlk aylarda çalışa bilməsə də, sonradan bir neçə əsərlərini pandemiyaya həsr edib. "Rəngləri çox sevirəm. Yaratdığım dünyamı fırça ilə boyayandan sonra özümü xoşbəxt hiss edirəm", - deyə o əlavə edib.

Qeyd edək ki, bu ilin sentyabrında rəssamın Bakıda geniş sərgisi nəzərdə tutulur.

Lətafət Məmmədova 1973-cü ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib. Riqa, Vilnüs və digər Baltikyanı şəhərlərin bədii kollektivlərində (1978-80-ci illər) fəaliyyət göstərib. 1980-2001-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqoji fəaliyyət də göstərib. Sonra yaradıcı fəaliyyətini Türkiyədə davam etdirib.

# Rus Dram Teatrında ingilis deputatın başına gələnlər

İyunun 24-də Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında ingilis dramaturqu, "vəziyyət komediyası"nın ustası Rey Kuninin "Qarışıqlıq" əsəri əsasında səhnələşdirilmiş "Kişi, qadın, pəncərə... məşuq" adlı tamaşa nümayiş olunacaq.



Teatrın repertuarındakı maraqlı nümunələrdən olan tamaşanın quruluşçu rejissoru Xalq artisti İranə Tağızadə, rəssamı Aleksandr Fyodorov, musiqi tərtibatçısı Vladimir Neverovdur.

Qeyd edək ki, tamaşa qəhrəmanların aramsız olaraq düşdüyü ekssentrik situasiyalar kaleydoskopudur. İngiltərə parlamentinin üzvü ser Uilli beşulduzlu hoteldə öz siyasi opponentinin yaraşıqlı katibəsi Ceynlə xoş bir axşam keçirmək niyyətindədir. Pəncərələri "Biq-Ben"ə baxan 13 nömrəli otaqda gərginliklər məhz həmin rəqəmin ucbatından başlayır...

# "Pillə" tələbələrin diplom və kurs tamaşalarını nümayiş etdirəcək

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyi münasibətilə "ADMİU 99+" layihəsi çərçivəsində iyunun 22-25-də "Pillə" tələbə tamaşaları festivalı keçiriləcək.

Universitetdən bildirilib ki, festivalda aktyor sənəti ixtisası üzrə təhsil alan tələbələrin təşkilat komitəsi tərəfindən seçilmiş diplom və kurs tamaşaları nümayiş olunacaq.

Qaliblərə "Ən yaxşı tamaşa", "Ən yaxşı kişi rolu", "Ən yaxşı qadın rolu" nominasiyaları üzrə mükafatlar, o cümlədən gənc tənqidçilərin xüsusi mükafatı təqdim olunacaq. Bundan əlavə, festival müddətində tamaşaların müzakirəsi ilə əlaqədar tələbə-teatrşünaslardan ibarət gənc ekspertlər qrupunun aktiv fəaliyyəti də nəzərdə tutulur.

"Pillə" festivalı tələbələrin yaradıcılıq prosesinə daha sıx təşviq edilməsi, gənc istedadların aşkarlanması və teatr tədrisi prosesinin aktivləşdirilməsi kimi məqsədləri hədəfləyir.

# Səhnə "Balaca kişilər"indir

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının Vətən müharibəsi mövzusunda elan etdiyi pyes müsabiqəsinin nəticələrinə uyğun olaraq qalib əsərin məşqlərinə başlanıb. Qeyd edək ki, müsabiqədə yazıçı-dramaturq İlqar Fəhminin "Balaca kişilər" pyesi münsiflər heyəti tərəfindən qalib elan olunmuşdu.



Pyesə Əməkdar artist Nicat Kazımov quruluş verir. Tamaşanın tərtibatçı rəssamı Yekaterina Xaritonova, geyim rəssamı İradə Heydərovadır. Döyüş və fəndlərin quruluşu İsa Əsədova, musiqi tərtibatı Zaur Rəşidova aiddir.

Səhnə əsərinin ilk oxunuş günü teatrın direktoru Naidə İsmayılzadə Qarabağ Zəfərinə həsr olunan tamaşanın məsuliyyətindən danışıb: "Xalqımızın həyatında ən önəmli hadisələrdən birini, tarixi Qələbəni səhnədən layiqincə göstərməliyik. Arzu edirəm, elə bir tamaşa qurulsun ki, qazilərimiz, o yerlərdə döyüşən oğullarımız bizə baxıb alqışlasınlar. Yeni gələn nəsillər bu gün baş verənləri, xalqımızın tarixindəki bu parlaq hadisəni, böyük qələbəni həm də bizim tamaşadan öyrənsinlər. Tarix kitabları hər şeyi olduğu kimi yazacaq, təqdim edəcək. Sənətin isə vəzifəsi hadisələri daha dərin, daha təsirli əks etdirməkdir. Böyük qələbə ilə yanaşı ağrılarımız da var. Ayrı-ayrı ailələr balalarını, əzizlərini itirdilər. Amma bu hamımızın itkisidir. Sənət həmin ağrıları da ovutmağa çalışmalıdır".

Quruluşçu rejissor N.Kazımov bu mövzuda tamaşa qurmağın həm də vətəndaşlıq borcu olduğunu qeyd edib: "Xatırlayıram ki, Xocalı soyqırımının onuncu ildönümündə tamaşa qurmuşdum. O zaman tamaşaçılar arasında Qarabağdan məcburi köçkün düşən soydaşlarımız da vardı. Məndən ötrü onların səhnədə baş verənlərə reaksiyası, sonradan dedikləri fikirlər ən böyük dəyər idi. Onda anladım ki, sənət meyarları və peşəkarlıq öz yerində, amma xalq üçün belə həssas mövzularda əsərlər qurulanda vətəndaşlıq duyğuları hər şeydən öndə olmalıdır...".

Qeyd edək ki, tamaşada Əməkdar artistlər Şövqi Hüseynov, Rasim Cəfər, Elnur Kərimov, aktyorlar Araz Pirimov, Bəhram Həsənov, Hilal Dəmirov, Xaliq Bəkirov, Mətləb Abuşov, Ümman Budaqov, Nurlan Süleymanlı, Mirsənan Kazımlı, İlhan Sadıqov, Rəşad Səfərov, Ramiq Nəsirov, Müşfiq Əliyev, Ceyhun Məmmədov, Anar Seyfullayev, Mirzəağa Mirzəyev, Əbülfəz İsgəndərov rol alıblar.

Səhnə əsəri yeni teatr mövsümündə sənətsevərlərin görüşünə gələcək.

# Düşmən mühasirəsindən çıxa bilsəydi...

Vətəni hər şeydən, hətta iki fidan qız övladından da əziz bilmək... Xalqımızın əbədi qürur ünvanına, and yerinə çevrilən yüzlərlə şəhidimiz körpə oğlunun, qızının şəkillərini cibinə qoyub düşmən üzərinə yeridi. Çünki Ana vətən çağırmışdı... Vətən müharibəsi şəhidlərindən Fərid Hüseynovu yada salırıq.



Fərid Etibar oğlu Hüseynov 11 iyun 1994-cü ildə Şəki rayonunun Qayabaşı kəndində dünyaya göz açıb. 2011-ci ildə Qayabaşı kənd orta məktəbini bitirib. 2011-2013-cü illərdə Ağdam bölgəsində həqiqi hərbi xidmət keçib. Hərbi xidməti başa vurduqdan sonra doğma kəndlərinə qayıdıb və 2014-cü ildə ailə həyatı qurub. Kənddə bir müddət fərdi təsərrüfatla məşğul olub. 2017-ci ildə anasının vəfatı ilə ailə sarsılır. Fərid ailəsi ilə Bakıya köçür. O, Binəqədi rayonunun Xocasən qəsəbə bələdiyyəsində fəhlə kimi çalışır.

Vətən müharibəsi başlayanda torpaqlarımızın azadlığı uğrunda döyüşlərə qatılır. Xocavənd-Şuşa ətrafı döyüşlərdə fəal iştirak edir. Döyüş yoldaşları ilə düşmənin ayağını əzəli yurd yerlərimizdən kəsir, yaşayış məntəqələrini, strateji yüksəklikləri azad edirlər. Oktyabrın 29-da Fərid son döyüşünə çıxır. Onun da yer aldığı döyüşçü qrupu mühasirəyə düşür. Düşmən ərazini intensiv şəkildə artilleriya atəşinə məruz qoyur və Fərid qəhrəmancasına şəhadətə yüksəlir.

Şəhidin atası Etibar Hüseynov oğlunu fəxrlə anır. Deyir ki, Fərid çox yaxşı oğul olub. Ata-anasına, ailəsinə bağlı idi. 2017-ci ildə anasının vəfatı onu çox sarsıtmışdı.

"Övladları Damla və Nəzrini hədsiz dərəcədə sevirdi. İndi qızları o sevginin həsrəti ilə yaşayırlar". Bu fikirləri isə Fəridin həyat yoldaşı Ülviyyə xanım deyir.

Qayabaşı kənd orta məktəbinin müəllimi Rahim Hüseynov şəhid şagirdini belə xatırlayır: "Oxuduğu müddətdə sakit, səmimi xarakteri ilə şagird və müəllim kollektivinin yaddaşında iz buraxmışdı. Dərslərindən yüksək qiymətlər almasa da, idmana və hərbiyə olan xüsusi marağı ilə daim seçilirdi. Fərid səmimi, genişqəlbli oğlan idi. Ona hər hansı bir iş üçün müraciət etdikdə, heç vaxt biganə qalmazdı, əlindən gələn köməkliyi etməyə çalışardı. Çox zəhmətkeş idi. Uşaq yaşlarından ağır işlərdə işləməkdən əlləri qabar olmuşdu... Vətənin ona ehtiyacı olan bir dönəmdə isə ailəsini qayınatasına tapşıraraq döyüşə yollanıb...".

Qayabaşı kənd orta məktəbi uşaq birliyinin rəhbəri Ülviyyə Qafarova Fəridin Vətən müharibəsindən bir qədər əvvəl sosial şəbəkədə çox kədərli bir paylaşımla ürəkləri dağladığını deyir: "Fərid müharibədən az öncə kəndə gəlmiş, qohum-əqrəbaları ilə görüşmüş, sonuncu dəfə anasının qəbrini ziyarət etmişdi. Hətta anasının başdaşına söykənib şəkil çəkdirmiş, "Ana, səninçün çox darıxmışam, tezliklə gələcəm yanına", -deyə yazmışdı. Fərid cənnət mələyi idi. Çünki həm anasına, həm də Vətəninə ləyaqətlə xidmət etmişdi...".

2020-ci il noyabrın 12-də Fərid Hüseynovun cənazəsi doğma kəndinə gətirilib və böyük izdihamla torpağa tapşırılıb. Dövlət başçısının sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ruhu şad olsun.

**F.Yunisli**

# MDB ölkələri gənc arxivçilərinin yay məktəbi

Qazaxıstan Respublikası Prezident Arxivi, Əl-Fərabi adına Qazax Milli Universiteti və Rusiya Dövlət Humanitar Universitetinin birgə təşkilatçılığı ilə MDB ölkələri üzrə gənc arxivçilərin V Yay məktəbi təşkil edilib.




Hibrid formatda (onlayn və bilavasitə iştirak) keçirilən V Yay məktəbi "Rəqəmsal transformasiya mühitində milli arxiv qanunvericiliyi" mövzusuna həsr edilib.

Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan, Cənubi Koreya, Çin, Monqolustan və s. ölkələrdən 350-dən çox arxivçinin qatıldığı tədbirdə ölkəmizi Milli Arxiv İdarəsi İnformasiya təminatı və elektron xidmətlər mərkəzinin aparıcı məsləhətçisi Roza Əliyeva və Beynəlxalq əlaqələr sektorunun məsləhətçisi Gültən Eminova təmsil edib.

# Yaratdığı obrazlar onu əbədi yaşadacaq

## Xalq artisti Amaliya Pənahovanın xatirəsi yad olundu

Amaliya Pənahova İncəsənət İnstitutunun 3-cü kursunda oxuyarkən rejissor Tofiq Kazımov onu Akademik Milli Dram Teatrında İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesinin tamaşasında baş rola dəvət etdi. O zamanlar teatrda baş rolları peşəkar aktyorlar oynayardı. Ancaq tələbə-aktrisa bu işin öhdəsindən müvəffəqiyyətlə gəldi...



Bu fikirlər iyunun 16-da Azərbaycan Dövlət Film Fondunda unudulmaz teatr və kino xadimi, Xalq artisti, professor Amaliya Pənahovanın (1945-2018) xatirə gecəsində səsləndirildi.

Görkəmli aktrisanın sənət işığına tanınmış mədəniyyət və incəsənət xadimləri, ailə üzvləri toplaşmışdı.

Fondun foyesində Amaliya Pənahovanın kinoda yaratdığı obrazları ifadə edən fotolardan ibarət sərgi təşkil olunmuşdu.

Tədbiri Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq sənətkarın mədəniyyətimizin inkişafındakı xidmətlərindən danışdı. Diqqətə çatdırdı ki, insanın ən böyük mənəvi sərvətlərindən biri də onun yaddaşıdır: "Amaliya xanımın istedadı, yaradıcılıq fantaziyası teatr və kinonu sevənlər tərəfindən həmişə maraqla qarşılanıb. Pərəstişkarları saya gəlməzdi. Bugünkü tədbirə toplaşanların çoxluğu da Amaliya Pənahovaya olan sevginin göstəricisidir. Unudulmaz sənətkarın oynadığı 500-ə yaxın rol onu mədəniyyət tariximizdə bundan sonra əbədi yaşadacaq".

Dövlət Film Fondunda Amaliya Pənahovanın şəxsi arxivinin yaradıldığını diqqətə çatdıran Cəmil Quliyev dedi ki, burada sənətkarın 80 nadir fotoşəkli, kitabları, şəxsi sənədləri, qəzet və jurnalları toplanıb. Xalq artistinin şəxsi arxivinin yaradılması doğum gününə (15 iyun) həsr olunub. Materiallar sənətkarın qızı Aynur Muxtarova tərəfindən fonda təhvil verilib.

Əməkdar artist Elxan Qasımov Amaliya Pənahovanı 1962-ci ildən tanıdığını bildirdi. Qeyd etdi ki, Amaliya Pənahova haqqında yazılan monoqrafiyalar onun istedad və şəxsiyyətini tam əks etdirmir: "Amaliyanı yaxından tanımaq, gözündəki qığılcımı görmək üçün onunla təkbətək söhbət etmək lazım idi. Amaliya Pənahovanı daha yaxşı Bakı Bələdiyyə Teatrının aktyorları tanıyır. Bu teatrın əsasını qoyan sənətkar yaradıcı heyətə nəvazişlə yanaşır, aktyorlara sənətin sirlərini öyrədirdi. Bələdiyyə Teatrı Amaliya Pənahovanın canlı arxividir...".

Xalq artisti Rafiq Əzimov Amaliya Pənahovanın institutun 3-cü kursunda oxuyarkən "Sən həmişə mənimləsən" tamaşasında oynadığı Nargilə rolunu yada saldı. Bildirdi ki, həmin tamaşa respublikada səs saldı: "Bundan sonra Amaliya Pənahova ölkənin aparıcı teatrlarına tez-tez dəvət olundu. Roldan-rola püxtələşdi və tamaşaçıların sevimlisinə çevrildi. Yaratdığı teatr isə bir tarix oldu. Amaliya Pənahovanın teatrda fəaliyyəti dövründə yaşlı nəslin nümayəndələri ilə gənc aktyorlar bir səhnəni bölüşdülər. Bu, teatr tarixində bir dönüş idi".

Xalq artisti, rejissor Mərahim Fərzəlibəyov da ilk dəfə Amaliya Pənahovanı "Sən həmişə mənimləsən" tamaşasında görüb onunla işləmək arzusuna düşdüyünü bildirdi. Rejissor Akademik Milli Dram Teatrında görkəmli aktrisa ilə yaradıcılıq fəaliyyətini yada saldı: "Tale elə gətirdi ki, illər sonra Amaliya xanımın yaratdığı Bakı Bələdiyyə Teatrında rejissor vəzifəsinə təyin olundum və görkəmli sənətkarla yenə birlikdə işlədim. İnanıram ki, Bakı Bələdiyyə Teatrı hər zaman Amaliya Pənahovanın ruhunu yaşadacaq".

Amaliya Pənahova ilə birgə televiziya layihələrində çalışan telejurnalist Vidadi Hüseynov onunla ilk tanışlığını yada saldı və xatirələrini bölüşdü. Qeyd etdi ki, görkəmli aktrisanın istedadı və fədakarlığı onu daim düşündürüb.

Çıxışlardan sonra tədbir iştirakçıları aktrisa haqqında sənədli filmi izlədilər.

Amaliya Pənahovanın "Xatirələr sahili" filmində Xalidə, "Qərib cinlər diyarında" nağılfilmində Zərri, "Arxadan vurulan zərbə"də Ziba, "Babək" tarixi-bioqrafik filmində Zərnisə, "Qəribə adam"da Fəridə, "Mən nəğmə qoşuram"da Sonanın anası, "Gözlə məni" tarixi filmində Fəxrəndə, "Cavad xan" tarixi-bioqrafik filmində knyaginya Darya və başqa rolları bu gün də kinosevərlər tərəfindən böyük maraqla izlənilən dolğun, koloritli ekran personajlarıdır.

**S.Fərəcov**

# Qazax ədəbiyyatı Azərbaycan dilində

## Rəqəmsal kitabxana layihəsinin təqdimatı

İyunun 17-də Milli Kitabxanada Azərbaycan dilində rəqəmsal Qazax ədəbiyyatı kitabxanasının təqdimat mərasimi keçirilib. Layihə Mədəniyyət Nazirliyi, Qazaxıstanın Azərbaycandakı Səfirliyi və Milli Kitabxana tərəfindən həyata keçirilib.

Tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq bu il Azərbaycan və Qazaxıstan arasında diplomatik əlaqələrin 30 ilinin tamam olduğunu qeyd edib. Bildirib ki, ölkələrimiz bir çox sahələrdə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlıq edir. Azərbaycan Milli Kitabxanası da Qazaxıstan kitabxanaları ilə əlaqələrini genişləndirir.

Direktor vurğulayıb ki, həm Azərbaycan Milli Kitabxanasında, həm də Qazaxıstan Milli Akademik Kitabxanasında hər iki ölkənin tarixini, mədəniyyətini, ədəbiyyatını əhatə edən kitablardan ibarət daimi guşələr var. "Azərbaycan və Qazaxıstan arasında mədəniyyət sahəsində əlaqələri daha da genişləndirmək üçün biz Azərbaycan dilində qazax yazıçı və şairlərinin əsərlərindən ibarət elektron kitabxana yaratmağı qərara aldıq", - deyə K.Tahirov əlavə edib.

Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov bildirib ki, iki ölkə arasında münasibətlərin çoxəsrlik tarixi var. Ötən 30 il ərzində xalqlarımız arasında əlaqələr daha da möhkəmlənib və inkişaf edib: "Qazaxıstanın bir sıra universitetlərində və təhsil ocaqlarında Azərbaycana dair guşələr var. Azərbaycan Milli Kitabxanasında qazax ədəbiyyatı guşəsinin olmasını, Bakı küçələrindən birinin dahi qazax şairi Abay Kunanbayevin adını daşımasını, BDU-da Abay adına Qazax dili, tarixi və mədəniyyəti mərkəzinin açılmasını bu əlaqələrin möhkəmlənməsinə nümunə göstərə bilərik".



Səfir diqqətə çatdırıb ki, ötən dövrdə qazax müəlliflərinin kifayət qədər zəngin kitab fondu toplanılıb, onların əsərləri Azərbaycan dilinə tərcümə olunub.

Təqdim olunan rəqəmsal kitabxanada 50 kitab nümayiş olunur, onların arasında da A.Kunanbayevin, M.Auezovun və digərlərinin əsərləri yer alır.

Diplomat layihəyə verdiyi töhfələrə görə Kərim Tahirova təşəkkürünü bildirib və Azərbaycan dilində rəqəmsal Qazax ədəbiyyatı kitabxanasının elektron daşıyıcısını ona təqdim edib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva çıxış edərək bildirib ki, Azərbaycan və Qazaxıstan arasında diplomatik əlaqələrin 30 illiyi ərəfəsində belə bir layihənin təqdimatı çox qürurvericidir. G.Əfəndiyeva qeyd edib ki, ötən 30 il ərzində əlaqələrimiz müxtəlif səviyyələrdə inkişaf edib. Təqdim olunan rəqəmsal kitabxana bütün oxuculara Azərbaycan dilində qazax ədəbiyyatı ilə tanışlıq imkanı verəcək, xalqlarımızı daha da yaxınlaşdıracaq.

Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev müxtəlif dillərdə, həmçinin müxtəlif xalqların ədəbiyyatının oxunmasının gənclərimiz üçün əhəmiyyətindən danışıb. O, ümidvar olduğunu bildirib ki, layihədə yer alan kitabların sayı tezliklə artacaq və belə formatlı layihələr digər türk xalqları ilə davam etdiriləcək.

Bakı Slavyan Universitetinin professoru Nizami Məmmədov-Tağısoy, BDU-nun Türkologiya kafedrasının müdiri Ramiz Əskər, kafedranın professoru Firuzə Ağayeva və digər çıxış edənlər layihə haqqında fikirlərini bölüşüblər.

Sonda Milli Kitabxananın qazax şairi və mütəfəkkiri Abay Kunanbayevə həsr olunmuş virtual sərgisi iştirakçılara təqdim olunub.

# Məlahətli səs – şirin kəlam...

## Tələt Qasımov musiqi nümunələrinin orijinallığını qoruyub saxlamaqla yanaşı, onları öz xalları ilə zənginləşdirib



Azərbaycan muğam ifaçılığı sənətində öz dəst-xətti olan sənətkarlardan biri də Xalq artisti Tələt Qasımovdur. Görkəmli xanəndə yüksək ifa mədəniyyəti, ürəyəyatımlı səsi ilə dinləyici və tamaşaçının mənəvi aləminə nüfuz edə bilib. Bənzərsiz sənətkarlıq bacarığı ona dövrünün görkəmli muğam bilicilərinin hörmət və ehtiramını qazandırıb.

Tələt Məmmədağa oğlu Qasımov 21 iyun 1933-cü ildə Bakı şəhərində dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərir. Gənc ikən Abşeronun el şənliklərində Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov, Qurban Pirimov, Bəhram Mansurov, Aşıq Şakir kimi görkəmli sənətkarların ifalarını maraqla dinləyir. Gələcəklə bağlı gözəl xəyallar qurur, bu tanınmış musiqiçilərin sənətindən çox şeylər öyrənir.

Araşdırmalarda qeyd edilir ki, onu xanəndəlik sənətinə gətirən yol dini musiqidən keçib. O, müsahibələrinin birində deyib: "Cavan vaxtlarım idi. Klassik şairlərimizin mərsiyələrini çox oxuyurdum. Buna görə də məni dini məclislərə də dəvət edirdilər. Bununla da muğam avazlarını, həm də muğam ifaçılığı üçün uyğun olan qəzəl, qəsidələri öyrənirdim. Amma bununla yanaşı Zülfü Adıgözəlov və Hacıbaba Hüseynov sənətinin pərəstişkarı idim".

Həqiqətən də, Z.Adıgözəlov və H.Hüseynov onun xanəndə kimi formalaşmasına böyük təsir göstərirlər. Beləliklə, çox keçmir Tələt Qasımov öz dəst-xətti ilə seçilən xanəndə kimi tanınır. Sənətinin şöhrəti Azərbaycanın ən ucqar yaşayış məntəqələrinə çatır.

Tələt Qasımov 1954-1993-cü illərdə Azərbaycan Dövlət Filarmoniyası və Azərbaycan Dövlət Konsert Birliyinin solisti kimi fəaliyyət göstərir. Ömrünün müdrik çağlarında da xanəndəlik sənətinin ən fəal təbliğatçısı olur. Eyni zamanda sələflərinin ifaçılıq ənənələrini layiqincə davam etdirir. Özünəməxsus ifa üslubu ilə seçilərək musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfələr verir. Azərbaycan xanəndəlik məktəbi ənənələrinə sədaqət, muğamın klassik ifa tərzinin qorunub saxlanılması Tələt Qasımovun sənət fəaliyyətinin başlıca qayəsi olub.

Akademik Bəkir Nəbiyev xanəndə haqqında deyib: "Tələt Qasımov dostlarım arasında bir çox fərdi keyfiyyətləri ilə seçilən sənətkardır. O, çox yüksək insani keyfiyyətlərə, gözəl səs və şirin kəlamlara sahibdir. Təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da tanınan və sevilən sənətkarlarımızdan biridir. Onun muğam ifasında söz çox ahəngdar səslənir. Təşbeh və istiarələr dəqiq tələffüz edilir. Rəvan kəlamını dinlədikcə dinləmək istəyirsən...".

Akademik Vasim Məmmədəliyev isə Tələt Qasımovu xalq musiqisinə dərindən bələd olan, öz oxu tərzini yüksək bədii zövqlə tamaşaçıya çatdıran xanəndə kimi xarakterizə edib: "O, oxuduğu muğam, xalq mahnı və təsniflərinə xüsusi bir rəng qatır. Musiqi nümunələrinin orijinallığını qoruyub saxlayan Tələt Qasımov onları öz xalları, zənguləlǝri ilə yeni üslubda təqdim edir. Bu da əsl sənətkara xas olan keyfiyyətdir. Bunu ancaq dərin sənət təcrübəsi olan sənətkarlar edə bilir".

Tələt Qasımov respublikanın hüdudlarından kənarda – Türkiyə, İran, Almaniya, Rusiya, Misir, Əlcəzair, Tunis və Mərakeşdə qastrol səfərlərində Azərbaycan musiqisini layiqincə təbliğ edib, müxtəlif xalqların nümayəndələri muğamlarımızı onun məlahətli ifasında sevibl ər. Eyni zamanda onun usta ifaçılığı yeni musiqiçilər nəslinin yetişməsi üçün mühüm rol oynayıb.

Görkəmli sənətkar bir çox muğam və təsniflərimizi xüsusi şövqlə ifa edib. Xanəndənin ifasında "Rast", "Şur", "Segah-zabul" muğam-dəsgahları, "Şüştər" təsnifi Azərbaycan Televiziya və Radiosunun "qızıl fond"unda saxlanılır.

Ustad sənətkarın xanəndəlik fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 2002-ci ildə Prezidentin fərdi təqaüdünə, 2006-cı ildə "Xalq artisti" fəxri adına layiq görülüb. Tələt Qasımov 28 iyul 2013-cü ildə vəfat edib.

**Savalan**

# “Milli İrs Şəbəkəsi” platforması təsis olunub

## Məqsəd mədəni irs sahəsində qurumlar arasında əməkdaşlığı və təcrübə mübadiləsini stimullaşdırmaqdır

Xəbər verdiyimiz kimi, iyunun 13-dən 17-dək UNESCO-nun ”Dünya mədəni və təbii irsinin qorunması haqqında” 1972-ci il Konvensiyası çərçivəsində ”İrsin idarəedilməsi bacarıqlarının inkişafı” mövzusunda treninq keçirilib.



Təlim proqramı Mədəniyyət Nazirliyinin sifarişi, Dövlət Turizm Agentliyi, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin tərəfdaşlığı və Azərbaycan Yaradıcı Sənayelər Federasiyasının dəstəyi ilə gerçəkləşib.

Təlimin sonuncu günündə Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev çıxış edib. Direktor UNESCO-nun Dünya irsi siyahısında yer alan Qobustan abidələrinin qorunması, ərazidə aparılan elmi tədqiqat və arxeologiya işləri və qoruq tərəfindən icra edilən təbliğat-maarifləndirmə işləri haqqında məlumat verib. O, həmçinin qoruğun beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi və sərgi ekspozisiyalarının təşkili sahəsində təcrübələrini bölüşüb, iqlim təsirlərinin açıq səma altında muzey kimi qorunan qayalara təsirləri, bərpa-konservasiya təcrübələri haqqında verilən sualları cavablandırıb.

Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi layihələrin idarə edilməsi şöbəsinin böyük mütəxəssisi, mədəni turizm üzrə ekspert Elçin Kərimov 2019-cu ildə Dünya irsi siyahısına salınan Şəki şəhərinin tarixi mərkəzi kimi “Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğunun idarəetmə təcrübəsi, menecment, konservasiya, urban regenerasiya və risk menecment planlarının hazırlanması və işlənməsi mərhələləri, bərpa təlimatları haqqında təqdimatla çıxış edib. Təqdimatda qoruq ərazisində milli irs nümunələrinin, sənətkarlıq, adət-ənənələrin, meşə örtüyünün dünya irsi ərazisinin yardımçı atributları kimi imkanlarından və onların mühafizə tədbirlərindən bəhs edilib.

Təlim prosesində interaktiv metodları istifadə edilməklə iştirakçılara konkret keyslər ətrafında müzakirə aparmaq, təlim prosesində qaranlıq məqamlarla bağlı suallar vermək imkanı yaradılıb.

Təlim sessiyasından sonra proqramın rəhbəri – Azərbaycan Yaradıcı Sənayelər Federasiyası İdarə heyətinin sədri Vasif Eyvazzadə ölkəmizin irs idarəetməsində aparıcı qurumların nümayəndələrini ilk dəfə olaraq vahid təlim proqramında bir araya gətirən layihənin əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, gündəlik təlim sessiyalarında təqdim olunan mövzular, qaldırılan məsələlər ətrafında auditoriyanın həssaslığı, ünvanlanan çoxsaylı suallar irs idarəetməsi sahəsində müasir çağırışlar fonunda yeni qurumlararası əməkdaşlığın və təcrübə mübadiləsinin vacibliyini önə çıxarıb.

Vasif Eyvazzadə təlim günlərində iştirakçılar tərəfindən qaldırılan məsələlərdən bəhs edərək ölkəmizdə irsin qorunması və idarəedilməsi sahəsində çoxsaylı suallar və çətinliklərin olduğunu, eləcə də təlim proqramı iştirakçılarının motivasiyasını nəzərə alaraq yeni bir ictimai platformaya ehtiyac olduğunu bildirib və “Milli İrs Şəbəkəsi” (“Heritage Azerbaijan” platforması) ideyasını təqdim edib.

Vurğulanıb ki, ictimai platformanın məqsədi mədəni irs sahəsində müasir çağırışlar fonunda qurumlararası əməkdaşlığın və təcrübə mübadiləsinin stimullaşdırılması, maarifləndirmə işinin təşkili və məlumatların geniş auditoriyaya çatdırılması üçün təbliğat kampaniyalarının həyata keçirilməsi, bilik-bacarıqların artırılması, dövlət-özəl, dövlət-icma, özəl-icma əməkdaşlığının təşviqi, mədəni irsin qorunması, bərpası və inkişafında icma mədəniyyətinin inkişafı kimi aktual məsələləri əhatə edəcək.

Yekunda təlim iştirakçılarına sertifikatlar verilib. Proqramın ekspert təlimçiləri və təşkilatçılarına təşəkkürnamələr təqdim olunub.

# “Şuşa İli” çərçivəsində akvarel performansı

İyunun 18-də Xətai Sənət Mərkəzinin qarşısında ”Şuşa İli”nə həsr olunmuş akvarel performansı təşkil edilib.

Sərgi Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin dəstəyi və “İWS Azerbaijan” (Beynəlxalq Suluboya Cəmiyyətinin Azərbaycan nümayəndəliyi) və Xətai Sənət Mərkəzi nəzdində Akvarel qalereyasının təşkilatçılığı ilə reallaşıb.

Performansda 20-yə yaxın akvarelçi rəssam uzun bir vərəq üzərində öz bacarıqlarını nümayiş etdiriblər. Əsərlərdə Qarabağ və Şuşa mövzularına üstünlük verilib, zəngin memarlıq nümunələri, heyrətamiz təbiət mənzərələri akvarel texnikası vasitəsilə təqdim edilib.

Tədbirdə Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamları Arif Hüseynov, Sirus Mirzəzadə, Azərbaycan Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov, Xətai Sənət



Mərkəzinin direktoru Zahid Əvəzov iştirak ediblər. Tədbir akvarel performansı iştirakçıları ilə çay masası ətrafında yaradıcı söhbətlə davam edib.

# Fikrət Əmirovun 100 illiyi münasibətilə

## İctimai birliyin daha bir tədbiri Sumqayıtda keçirilib

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrant layihəsi çərçivəsində Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş silsilə tədbirlər təşkil edən ”İrsimizin tədqiqi və təbliği” İctimai Birliyi daha bir tədbiri Sumqayıt şəhərinin 28 May Mədəniyyət evində keçirib.

Tədbirdə şəhərin mədəniyyət xadimləri, musiqi məktəblərinin müəllim və şagirdləri, Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kollecinin kollektivi iştirak ediblər.

Tədbirdə Sumqayıt şəhər Fikrət Əmirov adına 5 nömrəli Musiqi məktəbinin direktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Süleymanov, “İrsimizin tədqiqi və təbliği” İctimai Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı çıxış ediblər. Dahi bəstəkar Fikrət Əmirovun zəngin irsindən söz açılıb, layihə haqqında məlumat verilib. S.Təhmirazqızının ssenarisi əsasında “Azərbaycantelefilm”də çəkilən “Fikrət Əmirov” sənədli filmi (rejissor Miri Rzayev) nümayiş olunub.

Sonra Sumqayıt Musiqi Kolleci və Fikrət Əmirov adına məktəbin müəllim və şagirdlərinin ifasında Fikrət Əmirovun musiqilərindən ibarət konsert proqramı təqdim edilib. Bəstəkarın “Sevil” operasından Sevilin ariyası, H.Cavidin “Şeyx Sənan” pyesinin tamaşasına yazdığı “Kor ərəbin mahnısı”, “Böyük dayaq” filmindən Pərişanın mahnısı, “Göygöl”, “Laylay”, “Reyhan” mahnıları səslənib.

Sonda tədbirin keçirilməsi üçün yaradılan şəraitə görə Sumqayıt Regional Mədəniyyət İdarəsinə təşəkkürünü bildirən S.Təhmirazqızı tərtibçi-müəllif olduğu, Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə nəşr olunan “İlham Əliyev və musiqi mədəniyyəti” kitabını F.Əmirov adına məktəbə hədiyyə edib.

**Fidan Nəsirova**

# Cövdət Hacıyev adına məktəbdə konsert



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Cövdət Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbində ”Şuşa İli”nə həsr olunmuş yekun konsert təşkil edilib.

İdarədən bildirilib ki, konsertdə şagird və müəllimlərin ifasında müxtəlif musiqi nömrələri səsləndirilib. Nağaraçalanlar, violonçelçilər və “Ad libitum” ansambllarının, “Renessans”, “Cırtdan” və “Çinar” xorlarının çıxışları alqışlarla qarşılanıb.

Tədbir zamanı məktəb vokalçılarının və xor kollektivlərinin Şuşa şəhərində keçirilən “Könlüm keçir Qarabağdan” respublika incəsənət festival-müsabiqəsindəki çıxışlarını əks etdirən videoçarxlar da nümayiş etdirilib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Həşimova, YAP Səbail və Suraxanı rayon təşkilatlarının sədrləri Muxtar Nağıyev, Vüqar Seyidov, digər qonaqlar tədbirdə iştirak ediblər.

# Səməd Vurğunun evində şeir axşamı

İyunun 18-də Səməd Vurğunun Ev-Muzeyində Vaqif Səmədoğlu adına Poeziya teatrının aktyoru, qiraətçi Kamran M.Yunisin iştirakı ilə ”Bir axşam...” adlı şeir məclisi keçirilib.



Vaqif Səmədoğlu, Ramiz Rövşən və digər şairlərin şeirlərindən seçmələr səslənib. Pianoçu Fuad Əlizadənin müşayiəti ilə keçən poeziya axşamı iştirakçılara söz-sənət zövqü bəxş edib.

# “Qarşıla bizi, Şuşa!”

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyi və 1 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin təsviri sənət qalereyasının birgə təşkilatçılığı ilə ”Qarşıla bizi, Şuşa!” adlı rəsm müsabiqəsinin sərgisi keçirilib.



“Şuşa İli” çərçivəsində gerçəkləşən sərgidə mərkəzin 7-16 yaş arası şagirdlərinin Şuşanın gözəlliyini tərənnüm etdikləri rəsmlər, dekorativ-tətbiqi sənət nümunələri, bədii şüşə, portretlərdən ibarət 75 əl işi nümayiş olunub.

Tədbirdə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının məktəb-studiyasının şagirdi Ə.Məmmədzadənin ifasında A.Dvorjakın “Yumoreska” əsəri səsləndirilib.

Rostropoviçlərin ev-muzeyi tərəfindən müsabiqə iştirakçılarına diplom və təşəkkürnamələr təqdim edilib.

## Xatirə təqvimi — 21-24 iyun

### Azərbaycan

**21 iyun 1794** – Tarixçi, şair, maarifçi Abbasqulu ağa Bakıxanov (1794-1847) Bakının Əmircan (Xilə) kəndində anadan olub. 1819-1845-ci illərdə çar Rusiyasının Tiflisdəki Qafqaz Baş Hərbi İdarəsində tərcüməçi işləyib, Türkmənçay müqaviləsinin (1828) imzalanmasında iştirak edib. “Gülüstani-İrəm” əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoyub. “Qüdsi” təxəllüsü ilə şeirlər yazıb.

**21 iyun 1933** – Xalq artisti, xanəndə Tələt Məmmədağa oğlu Qasımov (1933 – 28.7.2013) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyası və Dövlət Konsert Birliyinin solisti olub.

**21 iyun 1953** – Əməkdar incəsənət xadimi, sənətşünas Leyla Camal qızı Axundzadə (1953 – 10.2.2010) anadan olub. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında kafedra müdiri, Mədəniyyət və Turizm Nazirliyində Təsviri və dekorativ sənət sektorunun müdiri işləyib.

**22 iyun 1802** – Şərqşünas, maarifçi Mirzə Kazım bəy (Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu; 1802 – 27.11.1870) anadan olub. Peterburq Universitetini bitirib, 1839-cu ildə “Türk-tatar dilinin qrammatikası” dərsliyini çap etdirib. 1853-cü ildə Peterburq Universitetində açılan Şərqşünaslıq fakültəsinin dekanı təyin edilib. Rusiya Elmlər Akademiyasının ilk azərbaycanlı üzvü olub.

**22 iyun 1897** – Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov; 1897 – 26.9.1961) Şuşada anadan olub. Milan Konservatoriyasını bitirib. Xalq mahnıları və romansların, operalarda (“Koroğlu”, “Əsli və Kərəm”) baş partiyaların unudulmaz ifaçısı olub. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub, xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetini yaradıb.

**22 iyun 1916** – Əməkdar artist, vokalçı Sona Əyyub qızı Mustafayeva (Bağırova; 1916-1999) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub.

**22 iyun 1922** – Kinorejissor Rüfət İsmayıl oğlu Şabanov (1922-1998) Bakıda doğulub. “Gəmi saatının sirri”, “Liftçi qız” və s. filmləri çəkib, “Azərbaycantelefilm”in baş rejissoru olub.

**22 iyun 1923** – Əməkdar artist Rəhilə Məmməd qızı Məlikova (Mustafayeva; 1923 – 11.12.1996) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrının aktrisası olub, “Arşın mal alan” (1945) filmində Asya rolunu oynayıb.

**22 iyun 1924** – Yazıçı Cəlal Bərgüşad (Cəlal Novruz oğlu Cavadov; 1924 – 9.7.1996) Qubadlı rayonunun Qəzyan kəndində doğulub. Əsərləri: “Sıyrılmış qılınc”, “Bozatın belində” və s.

**22 iyun 1942** – Bəstəkar, şair Bəhram Paşa oğlu Nəsibov (1942-1998) Füzuli rayonunun Aşağı Rəfədinli kəndində anadan olub. “Xatırla məni”, “Deyin, hardadır?”, “Səni qəmli görəndə” və s. populyar mahnıların müəllifidir.

**22 iyun 1947** – Şair Eldar Baxış (Eldar Baxış oğlu Ağayev; 1947 – 22.5.1996) Qubadlı rayonunun Diləli Müskanlı kəndində doğulub. “Uzun Həsən”, “Məlikməmməd” pyeslərinin müəllifidir. Rus ədəbiyyatından tərcümələr edib.

**22 iyun 1955** – Tanınmış rəssam Vaqif Ucatay (Hüseynov Vaqif Hüseyn oğlu; 1955 – 20.12.2020) Şabran rayonunun Təkyə kəndində anadan olub.

**22 iyun 1994** – Xalq şairi, ədəbiyyatşünas alim, ictimai xadim Xəlil Rza Ulutürk (Xəlil Rza oğlu Xəlilov; 21.10.1932 – 1994) vəfat edib.

**23 iyun 1913** – Xalq şairi, tərcüməçi Nigar Xudadat bəy qızı Rəfibəyli (1913 – 9.7.1981) Gəncədə anadan olub. Lirik şeirləri ilə Azərbaycan poeziyasını zənginləşdirib, xarici dillərdən ədəbi nümunələri ( A.P.Çexov – “Albalı bağı”, E.L.Voyniç – “Ovod”, A.Puşkin, M.Lermontov və b. şairlərin şeirləri) Azərbaycan dilinə çevirib.

**23 iyun 1923** – Ədəbiyyatşünas, şair, tərcüməçi Qasım Xansuvar oğlu Qasımzadə (1923 – 28.7.1993) Qubadlı rayonunun Xocamsaxlı kəndində anadan olub. “Ürək döyüntüləri”, “Ədəbiyyatımız və mənəviyyatımız” və s. kitabların müəllifidir.

**23 iyun 1925** – Xalq artisti Gülcahan Şüaulla qızı Güləhmədova-Martınova (1925-2018) anadan olub. 30 ilə yaxın Dövlət Rus Dram Teatrında quruluşçu rejissor işləyib. Televiziya tamaşalarına quruluş verib. Bakı Musiqi Akademiyasının professoru olub.

**24 iyun 1944** – Əməkdar mədəniyyət işçisi, kino istehsalı təşkilatçısı Faiq Məmmədəli oğlu Əliyev (1944-2015) anadan olub. “Azərbaycanfilm” Kinostudiyasında, Dövlət Film Fondunda işləyib.

**24 iyun 1939** – Cənubi Azərbaycan yazıçısı Səməd Behrəngi (1939 – 31.8.1968) Təbrizdə anadan olub. “Ulduz və qarğalar”, “Balaca qara balıq” və s. kitabların müəllifidir. Azərbaycan nağıllarını fars dilinə tərcümə edib.

**24 iyun 1954** – Əməkdar mədəniyyət işçisi Vaqif Mahmud oğlu Bağırzadə (1954 – 7.3.2021) Bakıda anadan olub. Bakı Dövlət Sirkinin direktoru işləyib.

**24 iyun 1955** – Tanınmış jurnalist Nəcəf Adil oğlu Nəcəfov (1955 – 17.12.1999) Bakıda doğulub. Ali Sovetin deputatı olub. Ölümündən sonra “Şöhrət” ordeni ilə (2005) təltif edilib.

**24 iyun 1985** – Əməkdar artist Süsən Hacı Aslan qızı Məcidova (14.10.1916 – 1985) vəfat edib. Gənc Tamaşaçılar Teatrında çalışıb, “Bir cənub şəhərində”, “Bizim Cəbiş müəllim” və s. filmlərdə çəkilib.

### Dünya

**21 iyun 1840** – Gürcü şairi, yazıçı, ictimai xadim Akaki Rostomoviç Sereteli (1840 - 8.2.1915) anadan olub.

**21 iyun 1905** – Fransız yazıçı-dramaturqu, ekzistensialist filosof Jan-Pol Sartr (Jean-Paul Sartre; 1905-1980) anadan olub. 1964-cü ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb, lakin mükafatdan imtina edib. Əsərləri: “Ürəkbulanma”, “Azadlıq yolları”, “Qapalı qapılar arxasında”, “Dəfn olunmamış ölülər” və s.

**21 iyun 1910** – Rus şairi Aleksandr Tvardovski (1910-1971) anadan olub. “Muraviya ölkəsi”, “Vasili Tyorkin” və s. poemaların müəllifidir.

**21 iyun 1935** – Fransız yazıçısı Fransuaza Saqan (Françoise Sagan; 1935-2004) anadan olub. “Salam, kədər”, “Soyuq suda bir az günəş” və s. romanların müəllifidir.

**22 iyun 1887** – İngilis filosofu, UNESCO-nun ilk baş direktoru Culian Haksli (Julian Sorell Huxley; 1887-1975) anadan olub.

**22 iyun 1898** – Alman yazıçısı Erix Maria Remark (Erich Maria Remarque – Erich Paul Remark; 1898-1970) anadan olub. Romanları: “Qərb cəbhəsində dəyişiklik yoxdur”, “Zəfər tağı”, “Yaşamaq və ölmək zamanıdır” və s.

**22 iyun 1906** – Amerika rejissoru, 4 dəfə “Oskar” mükafatı laureatı Billi Vaylder (Billy Wilder; 1906-2002) anadan olub.

**23 iyun 1824** – Alman bəstəkarı, dirijor Karl Reyneke (Carl Reinecke; 1824-1910) anadan olub.

**23 iyun 1889** – Rus şairəsi, yazıçı, ədəbiyyatşünas Anna Andreyevna Axmatova (Qorenko; 1889 – 5.3.1966) anadan olub. Əsərləri: “Rekviyem”, “Qəhrəmansız poema”, “Ağ dəstə” və s.

**23 iyun 1901** – Türk yazıçısı Əhməd Hamdi Tanpınar (1901-1962) anadan olub. “Abdullah Əfəndinin yuxuları”, “Aydakı qadın”, “Ayna” və s. romanların müəllifidir.

**23 iyun 1927** – Amerika xoreoqrafı, tanınmış kinorejissor Bob Foss (Bob Fosse; 1927-1987) anadan olub. Filmləri: “Kabare”. “Lenni”, “Bütün bu caz” və s.

**24 iyun 1842** – Amerika yazıçısı Ambroz Birs (Ambrose Gwinnett Bierce; 1842-1914) anadan olub.

**24 iyun 1912** – Rusiyanın Xalq artisti Sergey Filippov (1912-1990) anadan olub. Filmləri: “12 stul”, “İvan Vasilyeviç peşəsini dəyişir” və s. Azərbaycanda “Alma almaya bənzər” filmində çəkilib.

**24 iyun 1930** – Fransız rejissoru, “yeni dalğa”nın tanınmış nümayəndəsi Klod Şabrol (Claude Chabrol; 1930-2010) anadan olub. “Qəssab”, “Bayquşun çığırtısı” və s. filmləri çəkib.

**Hazırladı: Vüqar Orxan**

№46 (1919)
22 iyun 2022
www.medeniyyet.az

# “Su altında üzən Simurq”

## Leyla Əliyevanın əsəri əsasında toxunan xalça Cenevrədə nümayiş olunur



14-30 iyun tarixində İsveçrənin Cenevrə şəhərində okean və dənizlərdəki ekoloji vəziyyətə incəsənətin dili ilə diqqət yönəldən “Mənim dənizlərim, mənim okeanlarım” (My Seas, My Oceans) adlı sərgi keçirilir. Sərgi Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü, BMT-nin Cenevrə şəhərindəki bölməsi və Azərbaycanın BMT-nin Cenevrə şəhərindəki bölməsi yanında daimi nümayəndəliyinin dəstəyi ilə təşkil edilib.

“Azərxalça” ASC-dən verilən xəbərə görə, iyunun 14-də sərginin açılışında Leyla Əliyeva, BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Cenevrədə akkreditə olunmuş diplomatik korpusun və ictimai təşkilatların nümayəndələri, soydaşlarımız iştirak ediblər.

Cenevrədəki Millətlər Sarayında (Palace of Nations) keçirilən sərgidə Azərbaycanın doqquz müasir rəssamının əsərləri təqdim olunur. Cavid İlham, Diana Əliyeva, Elşən Karaca, Erkin Ələkbərli, Günel Ravilova, Leyla Əliyeva, Mirəli Seyidov, Nəzrin Xələfova və Nəzrin Məmmədova öz əsərlərindəki mesajları qlobal ekoloji problemlərə yönəltməklə, ekoloji fəaliyyət üçün ictimai dəstək toplayır və bununla da qlobal məqsədlərə töhfə verirlər.



“Mənim dənizlərim, mənim okeanlarım” sərgisini təqdim edən kuratorlar – “Azərxalça” ASC İdarə heyətinin sədri, Əməkdar incəsənət xadimi Emin Məmmədov və isveçrəli həmkarı Viktoriya Dzodziev gələcək nəsillər üçün dünyanın ağciyərləri olan su ehtiyatlarının qorunmasının vacibliyini vurğulayıblar.

Sərginin diqqətçəkən eksponatlarından biri “Su altında üzən Simurq” xalçasıdır. Xalça Leyla Əliyevanın eyniadlı əsəri əsasında toxunub və xalçanın çeşnisi “Azərxalça” ASC-nin rəssamları tərəfindən yaradılıb.

“Su altında üzən Simurq” xalçası “Azərxalça” ASC-nin Nardaran emalatxanasında toxunub. Sərgi ziyarətçilərinin zövqünü oxşayan xalçanın əsas rəngləri ağ, qara və tünd-göy rənglərdir. Sahəsi 6 kv.m (3x2) olan xalçanın toxunmasında 4 toxucu xanım iştirak edib.

# “Sevmək üçün doğulanlar”

## Venesiya Biennalesində Azərbaycan pavilyonunun fəaliyyəti davam edir

Xəbər verdiyimiz kimi, İtaliyanın Venesiya şəhərində dünyanın ən nüfuzlu incəsənət sərgisi pandemiyanın doğurduğu məcburi fasilədən sonra yenidən rəssam və sənətsevərləri bir araya gətirib.

Venesiya Biennalesi iki ildən bir təşkil edilir və sayca 59-cu sərgi 2021-ci ildə keçirilməli idi. Lakin pandemiya ilə bağlı bu ilə ertələndi. 23 aprel – 27 noyabr tarixlərini əhatə edən 59-cu Venesiya Biennalesində Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə təmsil olunur. “Sevmək üçün doğulanlar” (“Born to love”) mövzusunda



Azərbaycan pavilyonu şəhərin ən izdihamlı məkanlarından birində – Müqəddəs Mark meydanındakı qədim “Procuratie Vecchie” binasında fəaliyyət göstərir. Pavilyonda Azərbaycandan yeddi rəssam – Juk (Nərmin İsrafilova), İnfinity, Ramina Səadatxan, Fidan Kim (Novruzova), Fidan Axundova, Sabiha Xankişiyeva və Əqdəs Bağırzadə müasir texnika və üsullarla mövzu üzrə ideyalarını, eyni zamanda ölkəmizin zəngin mədəni və tarixi xüsusiyyətlərini izləyicilərə çatdırırlar.

Qeyd edək ki, Azərbaycan Venesiya Biennalesində 2007-ci ildən – artıq 8-ci dəfə təmsil olunur.

Biennalenin mərkəzi sərgisində 79 milli pavilyon qurulub. Beş ölkə – Kamerun, Namibiya, Uqanda, Nepal və Oman ilk dəfə burada təmsil olunur. Mərkəzi Asiyadan Qazaxıstan, Qırğızıstan və Özbəkistan da müəyyən fasilədən sonra Venesiya Biennalesinə qatılıb. Rusiya isə məlum sanksiyalar səbəbindən ilk dəfə sərgidən kənarda qalıb.

Venesiyadakı Azərbaycan pavilyonu noyabrın 27-dək açıq olacaq.

# Afaq Abbasova İtaliya səhnəsində

## “Al Mulino” operasında baş rolda

Azərbaycanın Əməkdar artisti, Prezident mükafatçısı Afaq Abbasova İtaliyanın Triest şəhərindəki Cüzeppe Verdi adına Opera Teatrında səhnəyə qoyulan Ottorino Respiginin “Al Mulino” operasında baş rolda – Aniuska partiyasında çıxış edib.

Əməkdar artist uzun müddətdir İtaliyada məşqlərdə iştirak etdiyini və ilk dəfə səhnələşdirilən bu tamaşada baş rolu ifa etməkdən xoşbəxt olduğunu deyib. Cüzeppe Verdi adına Opera Teatrında premyerası olan “Al Mulino” tamaşasının dirijoru Fabrizio Da Ros, rejissoru Daniele Piskopodur.

Sənətçi bildirib ki, “Al Mulino” operasında əsas partiyanı ifa etməklə yanaşı, R.Leonkavallonun “Pagliacci” operasında Nedda obrazında da səhnəyə çıxıb. Opera yeni quruluşda dirijor Valerio Qalli və rejissor Viktor Qarsia Sierranın rəhbərliyi ilə



səhnələşdirilib. “Hər iki tamaşa İtaliya tənqidçilərinin müsbət rəyi və tamaşaçıların alqışları ilə qarşılanıb. Tamaşalarımız davam edir”, – deyə A.Abbasova bildirib.

Əməkdar artist İtaliyada yaradıcı fəaliyyətinə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya və Heydər Əliyev Fonduna, eləcə də ona dəstək olan hər kəsə təşəkkür edib.

# Türkiyə ilin beş ayında 12,7 milyon turist qəbul edib



2022-ci ilin ilk beş ayında Türkiyəyə xarici ölkələrdən 12,7 milyon xarici turist gəlib. Bu barədə Türkiyə Mədəniyyət və Turizm Nazirliyi məlumat yayıb. Məlumata görə, ölkəyə turist kimi gələnlərin 11,3 milyonu əcnəbilər, 1,4 milyonu isə xaricdə yaşayan Türkiyə vətəndaşları olub. İlin ilk 5 ayında xarici ziyarətçilərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 207 faiz artıb.

2022-ci ilin yanvar-may ayları dövründə Türkiyəyə ən çox ziyarətçi göndərən ölkələrin sırasında Almaniya 367 faiz artımla birinci, Bolqarıstan 335 faiz artımla ikinci, Rusiya 49,4 faiz artımla üçüncü yeri tutub. Siyahıda Rusiyadan sonra İran və İngiltərə gəlir.

Bu ilin may ayında isə qardaş Türkiyəyə gələn xarici ziyarətçilərin sayı əvvəlki ilin eyni ayına görə 308 faiz artaraq 3 milyon 824 min nəfər olub. Qeyd edək ki, may ayında ən çox ziyarətçi göndərən ölkələr siyahısında Almaniya əvvəlki ilin eyni ayına görə yüzdə 420 faiz artımla birinci yerdədir.

**Mehparə Sultanova**
**Ankara**

# Ukrayna “Avroviziya-2023”ə ev sahibliyi edə bilməyəcək

## Avropa Yayım Birliyi bu qənaətdədir

Ölkədəki mövcud vəziyyət səbəbindən Ukraynanın “Avroviziya-2023” mahnı müsabiqəsini təşkil etməsi mümkün olmayacaq. Bu barədə Avropa Yayım Birliyi (EBU) bəyanat yayıb.




“Ukrayna təmsilçisinin “Avroviziya”da qələbəsindən sonra EBU Ukrayna İctimai Televiziya şirkətinin müsabiqənin gələn il keçirilməsi variantlarını öyrənib. Obyektiv təhlildən sonra referent qrupu təəssüf hissi ilə belə qərara gəlib ki, mövcud vəziyyət, təhlükəsizlik zəmanəti nəzərə alınaraq, yayımçı müsabiqənin qaydalara uyğun təşkili və keçirilməsi üçün zəruri olan şərtləri yerinə yetirə bilməyəcək”, - deyə müsabiqənin saytında dərc olunmuş bəyanatda bildirilir.

Xatırladaq ki bu ilin mayında keçirilmiş mahnı müsabiqəsində Ukraynanın “Kalush Orchestra” qrupu qalib gəlib. İkinci yeri 466 bal toplayan Böyük Britaniya təmsilçisi Sem Rayder tutub.

Hazırda müsabiqənin Britaniyada keçirilməsi məsələsinə baxılır. EBU bununla bağlı BBC ilə danışıqlara başlayır.

Rəsmi Kiyev isə bu qərarla razılaşmadığını bildirib və EBU-nu əlavə danışıqlara çağırıb.

Bu arada Kiyevə səfər edən Böyük Britaniyanın Baş naziri Boris Conson Ukraynanın gələn il “Avroviziya” mahnı müsabiqəsinə ev sahibliyi etməyə layiq olduğunu və Rusiya ilə davam edən müharibəyə baxmayaraq, bunu bacaracağına ümid etdiyini bildirib.

“Ukrayna Avroviziya mahnı müsabiqəsinin qalibi olub. Müsabiqədə ölkəmiz çox yaxşı təmsil olunub və ikinci yeri tutub. Ancaq fakt odur ki, onlar qalib gəldilər və buna layiqdirlər. Mən inanıram ki, onlar “Avroviziya” mahnı müsabiqəsinə ev sahibliyi edə bilərlər. Hələ bir il var. Ona qədər Ukraynada sülhün bərqərar olacağına inanıram”, - deyə o qeyd edib.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 519 il əvvəl...

**21 iyun 1503-cü ildə** Şah İsmayılın başçılıq etdiyi Səfəvi qoşunları Almaqulağı (Həmədan yaxınlığında) döyüşündə Sultan Muradın başçılığı altında Ağqoyunlu ordusunu məğlub edib. 1500-cü ildə Ağqoyunlu dövləti ikiyə parçalandıqdan sonra onun bir qoluna Əlvənd Mirzə, ikinci qoluna Sultan Murad başçılıq edirdi. Səfəvi qoşunları 1501-ci ildə Şərur döyüşündə Əlvənd Mirzəni məğlub etmişdi. Ağqoyunlunun ikinci qolunun məhv edilməsi ilə Səfəvi dövlətinin güclənməsi başlandı.

### 409 il əvvəl...

**21 iyun 1613-cü ildə** Rusiyada Romanovlar sülaləsinin hakimiyyəti başlayıb. 1606-cı ildə başlayan qarışıqlıq və ixtilafdan sonra boyarlar gənc Mixail Romanovu çar seçdilər. Kremldəki Uspenski kilsəsində yeni çarın tacqoyma mərasimi keçirildi. Boyarlar Romanovun hakimiyyətinin müvəqqəti olacağını və ölkəni istədikləri kimi idarə edəcəklərini düşünürdülər. Lakin Mixailin çarlığı 32 il sürdü, Romanovlar sülaləsi isə 3 əsr hakimiyyətdə qaldı.

### 275 il əvvəl...



**20 iyun 1747-ci ildə** Nadir şah Əfşar (1688-1747) sui-qəsd nəticəsində öldürülüb. Nadir sonuncu Səfəvi hökmdarı III Şah Abbasın ordu komandanı olub. 1736-cı ildə III Şah Abbasın ölümündən sonra Suqovuşanda (Sabirabad rayonu) Azərbaycan bəylərinin qurultayını çağıraraq özünü şah elan edib. Nadir şah Səfəvilərdən sonra güclü Azərbaycan dövləti qurmaq istəyirdi. Lakin onun Azərbaycanı İran taxtı ətrafında birləşdirmək niyyəti yerlərdə etiraz doğurardu. Orta Asiyanın bir hissəsini, Hindistanın şimalını ələ keçirərək qurduğu imperatorluq ölümündən sonra dağıldı.

### 104 il əvvəl...

**3 iyun 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası ölkə ərazisində hərbi vəziyyətin elan olunması və bütün qüvvələrin daşnak-bolşevik “Bakı Kommunası” ilə mübarizəyə səfərbər edilməsi barədə qərar qəbul edib.

### 102 il əvvəl...

**23 iyun 1920-ci ildə** Təbrizdə Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə Azərbaycan Milli Hökuməti qurulub. Xiyabaninin lideri olduğu Azərbaycan Demokrat Firqəsi həmin ilin aprelində baş verən üsyan nəticəsində Təbrizdə faktiki hakimiyyəti ələ almışdı. Cənubi Azərbaycan Milli Hökuməti 1920-ci ilin sentyabrında Şeyx Məhəmməd Xiyabaninin qətlə yetirilməsi ilə süqut etdi.

### 82 il əvvəl...

**22 iyun 1940-cı ildə** faşist Almaniyası ilə Fransa arasında Kompen sülhü imzalanıb. Baş nazir Anri Petenin imzaladığı təslimçi sazişə əsasən, Fransanın üçdə iki hissəsi (Paris də daxil olmaqla) Almaniya tərəfindən işğal olunub, Fransanın ordusu buraxılıb. Almaniyanın Fransa üzərində işğalı 1944-cü ilədək sürdü.

### 81 il əvvəl...



**22 iyun 1941-ci ildə** Almaniya qoşunları SSRİ üzərinə hücuma keçiblər, Böyük Vətən müharibəsi başlayıb. Hitlerin “Barbarossa” planına görə, müharibə 2-3 ay ərzində SSRİ-nin Uraladək ərazisinin (o cümlədən Bakının) tutulması ilə yekunlaşmalı idi. Amma müharibə 4 il sürdü və Berlində başa çatdı. Bu qələbə SSRİ-yə 30 milyona yaxın insanın itirilməsi hesabına başa gəldi.

### 62 il əvvəl...

**20 iyun 1960-cı ildə** Mali və Seneqal federasiyaları Fransanın müstəmləkəçiliyindən çıxaraq müstəqilliyini elan edib. Bunun ardınca federasiya ləğv olundu və hər iki subyekt müstəqil dövlət oldu.

### 35 il əvvəl...

**21 iyun 1987-ci ildə** SSRİ-də ilk dəfə yerli hakimiyyət orqanlarına (kənd, qəsəbə və şəhər xalq deputatları sovetləri) alternativ əsasda seçkilər keçirilib.

### 30 il əvvəl...

**20 iyun 1992-ci ildə** Azərbaycan Respublikası ilə Estoniya (ölkəmizin müstəqilliyini 1992-ci il fevralın 20-də tanıyıb) arasında diplomatik münasibətlər qurulub.

### 21 il əvvəl...

**21 iyun 2001-ci ildə** Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1789
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641